

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 12 - dekabr 2021



**Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

N 12 - dekabr 2021

**TƏSİSÇİ:**
Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi

**BAŞ REDAKTOR:**
Fikrət Məmmədov

**REDAKSİYA HEYƏTİ:**
Fuad Ələsgərov
Toğrul Musayev
Azər Cəfərov
Adil Əliyev
Cavid Hüseynov
Elçin Xələfov

*”Qanunçuluq” jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© “Ədliyyə Nəşriyyat Evi”MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT


Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti....................4
Birinci vitse-prezident Mehriban Əliyeva: Uca Tanrı ölkəmizi, xalqımızı və bizim dostlarımızı qorusun! ......................7
“Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 yanvar tarixli Sərəncamı ....................8
Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər ....................9
Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşa şəhərində olublar ....................11
Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevi yubileyi münasibətilə təbrik edib ....................13
Prezident İlham Əliyev. Siyasət olimpinə və Qarabağ Zəfərinə gedən uğur yolu (fotokompozisiya) ....................14


## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Ədliyyə işçiləri adından Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə təbrik ....................20
Ulu öndər Heydər Əliyevin əziz xatirəsi ədliyyə orqanlarında yad edilib....................22
Prezident İlham Əliyev ədliyyə və məhkəmə sistemində müasir islahatların müəllifidir ....................23
Ölkə Prezidentinin vətəndaşlara qayğısı minnətdarlıqla qarşılanır....................26
Beynəlxalq antikorrupsiya fəaliyyətində Azərbaycan mühüm rol oynayır ....................26
Avropa ədliyyə nazirlərinin növbəti konfransı keçirilib ....................27
Cinayətkarlıqla mübarizədə ədliyyə sahəsində səmərəli beynəlxalq əməkdaşlıq həyata keçirilir ....................30
Ədliyyə islahatlarına və innovasiyalara dair "açıq qapı" günü keçirilib ....................30
Ədliyyə Nazirliyində "Aliment və digər borclara dair qərarların icrası" mövzusunda sual-cavab sessiyası keçirilib ......33
Ədliyyə Akademiyasında ....................35
Vəkillər Kollegiyası Ədliyyə Nazirliyi ilə birgə növbəti hüquqi yardım aksiyası keçirib ....................37


## YENİ QANUNLAR, FƏRMANLAR...


“İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 412-VIQD nömrəli Qanunu ....................38
“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 413-VIQD nömrəli Qanunu ....................39
“Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 419-VIQD nömrəli Qanunu ....................44
“Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 419-VIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli 1545 nömrəli Fərmanı....................45
“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 451-VIQD nömrəli Qanunu ....................47
“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 453-VIQD nömrəli Qanunu ....................47
“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 462-VIQD nömrəli Qanunu ..49
“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 463-VIQD nömrəli Qanunu ....................51

# Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti



-Əziz həmvətənlər.

2021-ci il arxada qaldı. 2021-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İl ərzində qarşımıza qoyduğumuz bütün məqsədlərə çatdıq. Azərbaycan uğurla inkişaf etdi və bu gün daha güclü Azərbaycan dünyada tanınır.

Biz beynəlxalq arenada öz mövqelərimizi möhkəmləndirdik. Bizim beynəlxalq nüfuzumuz artdı, bir neçə beynəlxalq təşkilat çərçivəsində uğurla fəaliyyət aparmışıq. Bildiyiniz kimi, Qoşulmama Hərəkatının sədri kimi bütün üzv ölkələrin maraqlarını müdafiə etmişik, beynəlxalq hüququn norma və prinsiplərini müdafiə etmişik və təsadüfi deyil ki, Qoşulmama Hərəkatına üzv ölkələrin hamısı yekdilliklə Azərbaycanın sədrliyini daha bir il uzadaraq bizə böyük etimad göstərdi. BMT-dən sonra ikinci ən böyük təsisat, 120 üzvü olan təsisat Azərbaycana yekdilliklə bir daha öz dəstəyini ifadə etmişdir.

Bu il biz Türk Şurasına sədrliyimizi uğurla başa vurduq. Bildiyiniz kimi, noyabr ayında keçirilmiş Zirvə görüşündə Türk Dövlətləri Təşkilatı yaradılmışdır və bu təşkilat Qoşulmama Hərəkatı kimi Azərbaycanın haqlı işində daim bizə dəstək olmuşdur, Ermənistan-Azərbaycan münaqişəsi dönəmində daim dəstək ifadə etmişdir və son Zirvə görüşündə bütün üzv ölkələrin adından Azərbaycana torpaqlarımızın azad edilməsi ilə əlaqədar təbriklər ifadə olunmuşdur.

İslam Əməkdaşlıq Təşkilatı ənənəvi olaraq Azərbaycanın haqlı mövqeyini dəstəkləyən beynəlxalq təşkilatdır. Bu il də bu dəstəyi biz hiss etmişik, müharibədən sonra müharibənin nəticələrinin qəbul etdirilməsi üçün İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətini mən yüksək qiymətləndirirəm.

Eyni zamanda, dekabr ayında NATO və Avropa İttifaqına mənim uğurlu səfərlərim olub. NATO öz zirvə görüşlərində daim Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul etmişdir. Doqquz zirvə görüşündə bu qətnamələr qəbul edilmişdir. Bu dəfə də bu dəstək ifadə olundu. Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvə görüşünün yekununda qəbul edilmiş yekun sənəddə ölkələrin ərazi bütövlüyü, suverenliyi bir daha dəstəklənir.

Yəni, bütün dünya İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul etdi. Hesab edirəm ki, müharibədən sonra cərəyan edən proseslər bizim haqlı olduğumuzu bütün dünyaya bir daha sübut etdi. Bunun çox böyük əhəmiyyəti var. Çünki İkinci Qarabağ müharibəsi dövründə bizə qarşı əsassız ittihamlar səsləndirilirdi. Bu əsassız ittihamların heç birinin

real təsdiqi olmadı və müharibədən sonrakı dövr bunu bir daha göstərdi. Ona görə, müharibə reallıqlarını, müharibədən sonrakı reallıqları qəbul etdirmək, hesab edirəm ki, siyasi baxımdan çox önəmli hadisə kimi sayıla bilər.

Beynəlxalq arenadakı fəaliyyətimizə gəldikdə, bildirməliyəm ki, bizim qonşu dövlətlərlə əlaqələrimiz uğurla inkişaf etdi. Bu əlaqələr ənənəvi olaraq dostluq, əməkdaşlıq üzərində qurulubdur. Türkiyə ilə bu il imzalanmış Şuşa bəyannaməsi Türkiyə-Azərbaycan əlaqələrini rəsmən müttəfiqlik səviyyəsinə qaldırır, halbuki faktiki olaraq bu, müttəfiqlik əlaqələri idi, amma bu, artıq rəsmən təsdiqləndi və əlbəttə ki, bu bəyannamənin Şuşa şəhərində imzalanmasının xüsusi mənası var idi.

Rusiya ilə əlaqələrimiz uğurla inkişaf edir. Əminəm ki, növbəti dövrdə Rusiya ilə də bizim əlaqələrimiz daha yüksək səviyyəyə rəsmən qaldırılacaqdır.

Digər qonşularla, İran və Gürcüstanla daim təmaslar əsnasında, fikir mübadiləsi əsnasında dostluq və tərəfdaşlıq əlaqələri daha da inkişaf etmişdir. Artıq regionda çoxtərəfli əməkdaşlıq platformu formalaşır və əlbəttə ki, bu, bizim maraqlarımıza cavab verir.

Qonşular haqqında danışanda təbii olaraq Ermənistanı mən heç vaxt bu kateqoriyadan olan ölkələrə daxil etmirdim. Bu gün də hələ ki, daxil etmirəm. Amma ümid edirəm ki, nə vaxtsa Ermənistanla da bizim qonşuluq əlaqələrimiz qurulacaq. Hər halda İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul edərək Ermənistan da regional çərçivədə öz rolunu artıra bilər. Hər halda noyabr və dekabr aylarında Soçi və Brüssel şəhərlərində keçirilmiş görüşlər ümidvericidir və ümid edirəm ki, bu görüşlərdə əldə edilmiş razılaşmalar 2022-ci ildə real həyatda öz əksini tapacaqdır.

Biz İkinci Qarabağ müharibəsini heç vaxt unutmamalıyıq. İşğal dövründə törədilmiş vəhşilikləri unutmamalıyıq və unutmayacağıq. Biz şəhidlərimizin xatirəsini daim öz qəlbimizdə yaşadacağıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qəhrəmanlığı və minlərlə, on minlərlə Azərbaycan əsgər-zabitinin qəhrəmanlığı, peşəkarlığı sayəsində biz işğala son qoyduq, doğma torpaqlarımızı azad etdik, tarixi Zəfər çaldıq və bu Zəfər bizim tariximizdə əbədi qalacaq. Azərbaycan xalqı artıq dünyada müzəffər xalq kimi, Azərbaycan dövləti isə müzəffər ölkə kimin tanınır. Onu da bildirməliyəm ki, bu il Azərbaycana olan ənənəvi dəstək və hörmət daha da artdı və bunun başlıca səbəbi İkinci Qarabağ müharibəsindəki Zəfərimiz, müharibə dövründə bütün müharibə qaydalarına riayət etməyimiz və müharibədən sonra özümüzü ləyaqətlə aparmağımız idi.

Bununla paralel olaraq, biz hərbi gücümüzü bundan sonra da artıracağıq. 2021-ci ildə də bu istiqamətdə əməli addımlar atılıb, yeni silahlar, texnikalar alınıb və alınacaqdır. Eyni zamanda, hərbi birləşmələrimizin hazırlıq işinə də böyük əhəmiyyət verilir. İkinci Qarabağ müharibəsində bütün dünya Azərbaycanın hərbi gücünü gördü, Müdafiə Nazirliyinin xüsusi təyinatlıları artıq bütün dünya tərəfindən tanındı, onların qəhrəmanlığı, fədakarlığı, peşəkarlığı dastana çevrildi. Onu da bildirməliyəm ki, bu il artıq Azərbaycanda yeni hərbi birləşmə yaradılmışdır - Komando Qüvvələri. Bu Komando Qüvvələri istənilən hərbi vəzifəni icra etməyə hazırdırlar, onların sayı durmadan artır və artacaq. Beləliklə yeni çevik, peşəkar və çox böyük imkanlara malik olan silahlı birləşmənin yaradılması onu deməyə əsas verir ki, biz hər an öz torpaqlarımızı, öz sərhədlərimizi qorumağa hazır olmalıyıq. 2021-ci ildə Ermənistan-Azərbaycan sərhədində baş vermiş bəzi insidentlər onu göstərdi ki, Azərbaycan üstünlüyü tam öz əllərində saxlayır.

Azad edilmiş torpaqlarda bu il geniş quruculuq-bərpa işlərinə start verildi. Deyə bilərəm ki, dünya müharibələrinin tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb. Bu işlər haqqında Azərbaycan vətəndaşları müntəzəm olaraq məlumatlandırılır. Əgər mən bu haqda danışmağa başlasam, yəqin ki, bir neçə saat vaxt lazım olacaq, hər şey göz qabağındadır. Bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və biz buna nail olacağıq.

Eyni zamanda, Azərbaycanın bütün yerlərində inkişaf müşahidə olunur. Regional inkişaf proqramı uğurla icra edilir. Bu il mən bölgələrə çoxsaylı səfərlər sayəsində əlavə imkanların aşkar edilməsi üçün səylər göstərmişəm və mənim səfərlərim müntəzəm xarakter daşıyır. Azərbaycanın bölgələrinə bu il 47 dəfə səfər etmişəm, bu səfərlərin 32-si azad edilmiş torpaqlara olan səfərlərdir. Təkcə Şuşa şəhərinə 7 dəfə getmişəm. Biz Şuşada böyük quruculuq işlərinə start verdik və azad edilmiş torpaqlar arasında təbii olaraq ən genişmiqyaslı bərpa işləri Şuşa şəhərində aparılır. Eyni zamanda, digər şəhər və kəndlərdə çox genişmiqyaslı işlər aparılır və aparılacaq.

Əlbəttə ki, bütün bu işlərə nail olmaq üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir. Həm Azərbaycanda, həm dünyada hər kəs yaxşı bilir ki, Azərbaycan təkbaşına, heç kimdən bir manat, bir dollar yardım almadan bu işləri görür. Azad edilmiş bütün torpaqlarda görülmüş işlər Azərbaycanın dövlət büdcəsi hesabına aparılır. Heç bir yardım almamışıq, heç bir kredit almamışıq, bu işləri öz gücümüz hesabına görürük. Əlbəttə, əgər iqtisadi inkişaf sürətlə getməsə, bu işləri bu sürətlə aparmaq mümkün olmayacaq. Görülmüş işlər nəticəsində demək olar ki, biz artıq postböhran dövrünə qədəm qoyduq. Azərbaycan iqtisadiyyatı bu ilin 11 ayında 5,3 faiz, qeyri-neft iqtisadiyyatı isə 6,4 faiz artıb. Sənaye istehsalı 5,5 faiz, qeyri-neft sektorunda sənaye 20,7 faiz artıb. Valyuta ehtiyatlarımız 2,2 milyard dollar artıb. Ticarət əlaqələrimizin müsbət saldosu 9,4 milyard dollardır. Xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun cəmi 17 faizini təşkil edir və bu il ərzində həm mütləq rəqəmlərdə, həm ümumi daxili məhsula nisbətdə xarici dövlət borcu azalıb.




Yəni, bu göstəricilərlə hər bir ölkə öyünə bilər. Amma bizim üçün bu, təbiidir. Çünki Azərbaycan xalqı görür ki, uzunmüddətli, düzgün strategiyanın həyata keçirilməsi nəticəsində iqtisadi inkişaf göz önündədir.

Eyni zamanda, iqtisadi sahədə aparılan islahatlar, şəffaflıq, korrupsiya və rüşvətxorluqla mübarizə öz nəticələrini verməkdədir. Təkcə vergi orqanları sayəsində xəzinəyə proqnozdan əlavə 1,4 milyard manat pul daxil edilib və bu puldan istifadə edərək biz geniş sosial paket tədbirlərini keçiririk. Yanvarın 1-dən maaşlar, pensiyalar, təqaüdlər əhəmiyyətli dərəcədə artırılacaq. İki milyon yüz min insanı əhatə edən bu sosial paketin ümumi həcmi 1,5 milyard manatdır. Baxın, vergi orqanları xəzinəyə ancaq proqnozdan əlavə 1,4 milyard manat pul cəlb ediblər, onun hamısı və artıqlaması ilə sosial məsələlərin həllinə yönəldilib. Mən əvvəllər də demişəm ki, əlavə vəsait toplandıqca, ilk növbədə, biz bu vəsaiti sosial layihələrə yönəldəcəyik. Eyni zamanda, azad edilmiş torpaqlarda görülən işlər də sosialyönümlü işlərdir. Çünki o işlərin mütləq əksəriyyəti sosial xarakter daşıyır, keçmiş məcburi köçkünlərin tezliklə o ərazilərə qaytarılmasına hesablanıbdır.

Hesab edirəm ki, bu il COVID-lə mübarizədə yaxşı nəticələr əldə edilib, pandemiya tam nəzarət altındadır. Azərbaycan nadir ölkələrdəndir ki, bu sahədə vəziyyət qəbulediləndir. Eyni zamanda, aparılan genişmiqyaslı peyvəndlənmə siyasəti, peyvəndlənmə işləri bizə kömək göstərir. Əhalinin təxminən 50 faizi artıq 2 doz peyvənd alıb. 18 yaşdan yuxarı olan əhaliyə gəldikdə isə, bu rəqəm 62 faizə çatır. Ümumilikdə 11 milyondan çox doz vaksin vurulubdur və bu belə ilə biz yeni ildə də ciddi mübarizə aparacağıq.

Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasının sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa İli" elan edirəm.

Bildiyiniz kimi, bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Əminəm ki, dünya azərbaycanlıları bu bayramı ruh yüksəkliyi ilə qeyd edirlər. Artıq ikinci ildir ki, ruh yüksəkliyi ilə qeyd edirlər. Çünki mən bilirəm ki, bu işğal dövrü və işğalla bağlı olan məsələlər xaricdə yaşayan azərbaycanlılara da böyük əzab-əziyyət verirdi. Çünki ermənilərlə müxtəlif ölkələrdə ünsiyyətdə olarkən onların təkəbbürlü baxışları əminəm ki, dünya azərbaycanlılarını incidirdi. İndi isə vəziyyət tam fərqlidir. Biz heç vaxt təkəbbürlü olmamışıq, amma hər zaman öz gücümüzü hiss etmişik. Bu gün əminəm ki, dünya azərbaycanlıları yaşadıqları bütün ölkələrdə başı dik, alnıaçıq, üzüağ gəzirlər və öz tarixi vətəni olan Azərbaycanla haqlı olaraq fəxr edirlər.

Əziz həmvətənlər, qeyd etdiyim kimi, bu il ölkəmiz üçün uğurlu olub. Əminəm ki, 2022-ci il də uğurlu olacaq. Çünki ölkədə mövcud olan birlik, həmrəylik və gözəl ab-hava bu reallığı bizə təmin edəcək. Mən isə Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam, ölkəmizin hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Mən sizi ürəkdən təbrik edirəm. Bayramınız mübarək olsun!

# Birinci vitse-prezident Mehriban Əliyeva: Uca Tanrı ölkəmizi, xalqımızı və bizim dostlarımızı qorusun!

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib.**



Paylaşımda deyilir:

"Əziz bacılar və qardaşlar!

Təbriklərinizə və xoş arzularınıza görə çox sağ olun! Biz də sizə ən səmimi təbriklərimizi çatdırırıq! Qoy üzünüzdən təbəssüm heç zaman əskik olmasın, kədər sizdən uzaq olsun! Yeni ildə sizə möhkəm cansağlığı, arzularınızın çin olmasını, bol nur və sevgi diləyirik! Uca Tanrı ölkəmizi, xalqımızı və bizim dostlarımızı qorusun!

Sevgilərlə,

Sizin MEHRİBAN".

## Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.




Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni- mənəvi dəyərini nəzərə alaraq **qərara alıram:**

1. 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 yanvar 2022-ci il*

# Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər











**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 18 il keçir.**

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın Dövlət Himni səsləndirilib.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzülüb.

***

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. İntibah, milli şüurun dirçəlişi,



iqtisadiyyatın inkişafı, müstəqilliyimizin dönməz xarakter alması bu dövrün əsas mahiyyətini təşkil edir.

Ümummilli Liderin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç bir hakimiyyət sahibi etməyib. Meydana silahsız gələn bu dahi insan qüdrətli ordu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin arzusunu, vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. İldən-ilə güc toplayan Azərbaycan, onun rəşadətli Ordusu düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın mədəniyyət beşiyi olan Şuşada qürurla dalğalanmağa başladı.

Ulu Öndərin anım günündə bu dahi şəxsiyyətin xilaskarlıq missiyası xüsusi minnətdarlıqla xatırlanır. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş xalq ötüb keçənləri unutmayıb və xilasına görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə bəslənən tükənməz sevgi və ehtiramdan xəbər verir.

# Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşa şəhərində olublar



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri dekabrın 24-də Şuşa şəhərində olublar.**

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Yuxarı Gövhər Ağa məscidini ziyarət ediblər.

Sonra Prezident İlham Əliyev Şuşanın məşhur Cıdır düzündə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

-Son günlər ərzində mənə çoxlu təbrik məktubları gəlir, təbriklər gəlir, həm xaricdən həmkarlarımdan, müxtəlif ölkələrin dövlət və hökumət başçılarından, xaricdə yaşayan azərbaycanlılardan, təbii ki, ölkə vətəndaşlarından. Mən bütün insanlara - mənə xoş sözlər ünvanlayan, təbrik edən insanlara öz təşəkkürümü bildirmək istəyirəm. Xüsusilə Azərbaycan xalqına öz təşəkkürümü bildirmək istəyirəm, həm təbriklərə görə, həm də mənə göstərilən dəstəyə görə. Mən bu dəstəyi 2003-cü ildən - Prezident vəzifəsinə ilk dəfə seçiləndən bu günə qədər hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək iradəmi möhkəmləndirir. Bu dəstək nəticəsində biz hamımız - bütün Azərbaycan xalqı böyük tarixi uğurlara imza atmışıq.

Mən həmişə deyirdim ki, gün gələcək, işğal altındakı torpaqlarımız azad ediləcək, biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq. Azərbaycan xalqı bütün bu illər ərzində mənə inanırdı. Baxmayaraq ki, həm o vaxtkı məcburi köçkünlər, həm ölkə ictimaiyyəti ildən-ilə davam edən mənasız danışıqlara nəzər salaraq görürdü ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli çətinləşir. Amma buna baxmayaraq, doğma xalqım mənim sözlərimə inanırdı. Mən deyirdim ki, gün gələcək Azərbaycan bayrağı

işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada dalğalanacaq və bu müqəddəs günü biz şəhidlərimizin qanı-canı bahasına yaşadıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bu gün biz azad Qarabağdayıq. Bu gün biz azad Zəngəzurdayıq. Biz - bu torpaqların sahibləri bu torpaqlara qayıtmışıq və bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan xalqının mənim sözlərimə inamı məni daha da çox inandırırdı ki, biz buna nail olacağıq. Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu.

Azərbaycan xalqı yaxşı bilir ki, mən ad günlərimi qeyd etmirəm. Adətən ad günlərimə təsadüf edən günlərdə hansısa sosial obyektlərin açılışında iştirak edirdim, məcburi köçkünlərlə, şəhid ailələri ilə görüşürdüm. Şəhid ailələri üçün inşa edilmiş yeni evlərin açılışlarında, yeni salınmış köçkün qəsəbələrində bu kateqoriyadan olan insanlarla görüşürdüm. 50 illiyimi də məcburi köçkünlərlə bərabər qeyd etmişdim. 50 illiyimi Qarabağda - Ağcabədidə keçirdim, 60 illiyimi isə Qarabağda - bu dəfə Şuşada keçirirəm. Bu iki tarix arasında bir canlı bağlantı var. Ölkə ərazisində və bölgədə gedən proseslərə biz sadəcə olaraq seyrçi deyildik. Biz bu prosesləri böyük dərəcədə idarə edirdik. Biz bölgə gündəliyini formalaşdırırdıq. İkinci Qarabağ müharibəsində əldə edilmiş Zəfərdən sonra bizim gücümüz, nüfuzumuz, təsir dairəmiz daha da genişləndi.

Bu gün azad Qarabağda, Şuşada və Hadrutda olarkən mən, - əgər belə demək mümkündürsə, - öz ad günümü qeyd edirəm. Bu gün səhər Hadrutda Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi yeni silahlı birləşmə olan Komando Briqadasının hərbi hissəsinin açılışında iştirak edirdim. Mən bilirdim və hesab edirəm Azərbaycan xalqı da bu seçimi dəstəkləyər ki, bu gün mən Prezident, Ali Baş Komandan kimi hərbçilərə, Müzəffər Azərbaycan Silahlı Qüvvələrinə öz təşəkkürümü bildirmək və onların qarşısında yeni vəzifələr qoymaq üçün hərbçilərlə birlikdə olmalı idim.

Bu gün keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkib hissəsi olan Hadrutda - Xocavənd rayonunda ordu quruculuğunda aparılan işlərin yeni mərhələsinə qədəm qoyduq. Ondan sonra isə Şuşaya gəldim. Bu, mənim Şuşaya bu il yeddinci səfərimdir. Şuşa hər birimizi özünə çəkir. Düzdür, mən burada - Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim. O tədbirlər ki, Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olmasını bir daha təsdiqləyir. Amma, eyni zamanda, hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada - Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm.

Bu gün bir şeyə kədərlənirəm ki, atam bu günü görə bilməyib. Ancaq bilirəm ki, onun ruhu şaddır. Necə ki, Vətən həsrəti ilə yaşamış və həyatdan getmiş, azad edilmiş bu torpaqları görməyən minlərlə, on minlərlə məcburi köçkünlərin ruhu şaddır, şəhidlərimizin ruhu şaddır. Biz şəhidlərimizin qanını yerdə qoymadıq, qanını aldıq və əcdadlarımızın ruhunu şad etdik.

Bu il "Xarıbülbül" festivalında Ulu Öndərin Şuşa haqqında tarixi sözlərinin bir hissəsi videoformatda təqdim edildi. Hər birimiz o anları xatırlayır. Necə böyük inamla, necə böyük sevgi ilə Heydər Əliyev deyirdi ki, biz Şuşaya qayıdacağıq, inanın ki, qayıdacağıq. O, özü inanırdı, bizi də inandırırdı. Bizə də onun inamı, xalqın iradəsi əlavə güc verdi və bu gün biz buradayıq, bu müqəddəs torpaqdayıq. Qeyd etdiyim kimi, bundan sonra bu torpaqlarda Azərbaycan xalqı əbədi yaşayacaq, bundan sonra Qarabağda Azərbaycan muğamı əbədi səslənəcəkdir.

Əziz bacılar və qardaşlar, bütün xoş sözlərə, bütün təbriklərə görə sizə bir daha öz dərin təşəkkürümü bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, bundan sonra da eyni əzmkarlıqla, eyni qətiyyətlə ölkə maraqlarının keşiyində duracağam, sizin dəstəyinizlə biz yeni böyük uğurlara imza atacağıq.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

# Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevi yubileyi münasibətilə təbrik edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevi yubileyi münasibətilə təbrik edib.**

**Birinci vitse-prezidentin bununla bağlı rəsmi instaqram səhifəsində etdiyi paylaşımda deyilir:**

"Hörmətli cənab Prezident!

Bu gün mən milyonlarla Azərbaycan vətəndaşı kimi Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Bizə - Azərbaycan xalqına milli qürur və birlik hissi bəxş etdiyinizə görə Sizə təşəkkür edirik. Uzun illərdir ki, hər bir azərbaycanlının qəlbində yaşayan istəyini və müqəddəs arzusunu çin etdiyinizə görə Sizə minnətdarıq. Azərbaycan xalqı - müzəffər xalqdır!

Böyük işlər bir anda baş tutmur. İstənilən tarixi nailiyyətə aparan yol uzun, mürəkkəb və çətin olur. Sizin tarixi xidmətiniz ondadır ki, bu yola qədəm qoydunuz və onu şərəflə keçdiniz. Misilsiz xidmətiniz ondadır ki, bütün bu illər ərzində ölkəyə başçılıq edərək verdiyiniz qərarlarla Azərbaycan xalqının Zəfər qazanmasını təmin etdiniz.

Sizin gücünüz ondadır ki, bu yolda Siz xalqın etimadını qazanmağı bacardınız və məhz xalqın inam və sevgisinə arxalanaraq bu dəyərli etimadı doğrulda bildiniz. Tarixi xidmətiniz ondadır ki, bu illər ərzində bütün çətinliklərə, təzyiqlərə, bəzən əsassız və ədalətsiz fikirlərlə üzləşdiyinizə baxmayaraq bir an belə inamınızı, ümidinizi və iradənizi itirmədiniz. Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi kimi böyük missiyanın yerinə yetirilməsi də məhz Sizin yenilməz iradəniz sayəsində mümkün oldu.

Mən bilirəm ki, Siz həmişə öz xalqınıza inanmısınız. Məhz bu inam Sizin bütün şəxsi keyfiyyətlərinizlə birgə qazandığınız və qazanacağınız qələbələrin mənbəyidir.

Sizə ən səmimi təşəkkürlər!



İcazənizlə, yubiley gününüzdə Sizə və bütün Azərbaycan xalqına uzun ömür, möhkəm cansağlığı və bütün arzularınızın yerinə yetməsini diləyirəm.

Sizin uğur yolunuz davam etməkdədir və qarşıda hələ Vətənimiz naminə görəcəyiniz çoxlu işlər var.

Tanrı Sizə güc və səbir versin! Uca Allah Sizi və Azərbaycan xalqını bu müqəddəs yolda qorusun!

Biz Sizinlə fəxr edir və Sizi çox sevirik!

Mehriban Əliyeva".

# Prezident İlham Əliyev. Siyasət olimpinə və Qarabağ Zəfərinə gedən uğur yolu FOTOKOMPOZİSİYA

## Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 60 illik yubileyini ərazi bütövlüyü təmin olunmuş ölkənin, qalib xalqın lideri kimi qeyd edir



*Azərbaycanın taleyinə görə məsuliyyət İlham Əliyevin üzərinə gənc yaşlarında düşmüşdü. Prezident seçiləndə 42 yaşı vardı. Zamanın çağırışı və xalqın seçimi ilə ona həvalə olunan bu şərəfli missiyanın öhdəsindən heyrətamiz dərəcədə bacarıqla gələn İlham Əliyevin həyatı, keçdiyi ömür yolu bir uğur hekayəsidir. Moskvada təhsil illəri, çətin neft danışıqları, hər günü tarixə yazılan 18 illik prezidentlik dövrü... AZƏRTAC müasir dünya liderləri arasında yüksək intellekti, diplomatik məharəti, xüsusi natiqlik bacarığı ilə seçilən, adı tariximizə islahatçı lider, inkişaf etmiş Azərbaycan dövlətinin qurucusu kimi yazılan Prezident İlham Əliyevin bənzərsiz həyat yolunun bəzi məqamlarına nəzər salır.*

Doğulduğu və yaşadığı ev, oxuduğu 6 saylı orta





məktəb. Bakıdakı bu məşhur məktəbdə ona dərs deyən müəllimlərin çoxu həyatda yoxdur. Amma xatirələr qalır.

**İlham Əliyevə dərs demiş Emma Kazımovanın xatirələrindən:** O vaxt sinifdə güclü kontingent vardı. Uşaqlar bir-birinə baxıb daha səylə çalışırdılar, böyük rəqabət yaranırdı. Bizə qalsaydı, hər dəfə İlhama əla qiymətlər yazardıq. Çünki doğrudan əla oxuyurdu. Mənə deyirdilər, əlbəttə, atası o cür vəzifədədir, ona beş yazmayıb da, nə edəcəksiniz? Amma qətiyyən belə deyildi. Heydər Əliyev bir dəfə də olsun qiymətlə bağlı hansısa müəllimə bir söz deməyib və ya kiminləsə xəbər göndərməyib.

Emma müəllimənin sözlərinə görə, oğlu məktəbi bitirəndə Heydər Əliyev bütün ailə üzvləri ilə buraxılış gecəsinə gəlmişdi. Bu gözlənilməz hadisə məktəbdə gözəl bayram əhval-ruhiyyəsi yaratmışdı: "Əlbəttə, o zaman heç kəs deyə



bilməzdi ki, bu şagird mütləq prezident olacaq. Sadəcə, savadlı, ağıllı, tərbiyəli idi, neçə xarici dil bilirdi, bundan danışırdıq. Biz onların ailəsinə həsəd aparırdıq. Bilirsiniz, çox nadir ailələrdə





АТТЕСТАТ
о среднем образовании

Настоящий аттестат выдан Алиеву Ильгаму Гейдар оглы, родившемуся в гор.Баку, АзССР 24 декабря 1961 года, в том, что он в 1977 году окончил полный курс средней общеобразовательной школы № 6 р-на имени 26 бакинских комиссаров г.Баку и обнаружил при примерном поведении следующие знания:

| | |
|---|---|
| по родному (рус.) языку | 5 (отл.) |
| по родной литературе | 5 (отл.) |
| по русскому языку | - |
| по русской литературе | - |
| по азербайджанскому языку | 5 (отл.) |
| по алгебре и началам анализа | 5 (отл.) |
| по геометрии | 5 (отл.) |
| по истории СССР | 5 (отл.) |
| по всеобщей истории | 5 (отл.) |
| по обществоведению | 5 (отл.) |
| по физике | 4 (хор.) |
| по астрономии | 5 (отл.) |
| по химии | 5 (отл.) |
| по биологии | 5 (отл.) |
| по географии | 5 (отл.) |
| по иностранному языку (англ.) | 5 (отл.) |
| по черчению | 5 (отл.) |
| по начальной военной подготовке | 5 (отл.) |
| по трудовому обучению | 5 (отл.) |
| по физической культуре | 5 (отл.) |

Кроме того, выполнил программу по изобразительному искусству, пению и музыке, а также изучил факультативный курс ______

Директор школы (подпись)

Заместитель директора по учебно-воспитательной работе (подпись)

Учителя (пять подписей)

(Печать)

Выдан 25 июня 1977 года

АИ № 081057

belə tərbiyə, sadəlik olur. Çox az uşağa bu cür ailədə böyümək nəsib olur".

Qeyri-rəsmi xasiyyətnamə təsiri bağışlayan bu səmimi, isti sözlər İlham Əliyevin necə şagird olduğunu göz önündə canlandırır.

**Məktəbin indiki direktoru Əməkdar müəllim Gülşən Orucovanın dediklərindən:**

Məktəbimiz hər zaman öz məzunları ilə qürur duyub. Təbii ki, ən çox qürur duyduğumuz məzunumuz Prezident İlham Əliyevdir. Bu bizim üçün nə qədər şərəflidirsə, bir o qədər də məsuliyyətlidir. 2011-ci ildə təhsil müəssisəsinin yenidənqurmadan sonra açılış mərasimində iştirak edən Prezident İlham Əliyev vaxtilə ona dərs deyən müəllimləri ilə görüşdü, onlarla səmimi söhbət etdi, məktəb illəri ilə bağlı təəssüratlarını bölüşdü.

Müəllimlərinin dediyinə görə, İlham Əliyev heç vaxt sinif yoldaşlarından seçilməyib və daim onların yanında olub. Ümummilli lider Heydər Əliyev və Zərifə xanım hər zaman məktəblə əlaqə saxlayıb, müəllimlərlə sıx ünsiyyət qurub, övladlarının dərsləri ilə maraqlanıblar. Ulu Öndərimiz iki dəfə - İlham Əliyevin buraxılış gecəsində və 2001-ci ildə Bilik Günündə 6 nömrəli məktəb-liseydə olub. Bir maraqlı məqamı da qeyd edim ki, məktəb vinetkasında İlham Əliyevin şəkli birinci sırada beşinci yerdədir. Bu da sadəliyin, səmimiliyin nümunəsidir.






**Məktəbin müəllimi Zarema Almazovanın xatirələrindən:** Prezidentimiz İlham Əliyevlə 6 nömrəli məktəbdə eyni vaxtda oxumuşuq. Onu hər zaman tənəffüslərdə sinif yoldaşlarının yanında görürdüm. Çox sadə, üzügülər və mehriban oğlan idi. Hər zaman məktəbli formasında olardı və heç vaxt başqalarından seçilməzdi. Anam Emma xanım Prezidentimizə biologiya fənnindən dərs deyib. Məktəb illərini xatırlayanda həmişə deyirdi ki, İlham Əliyev sinif yoldaşları ilə çox mehriban davranırdı, onlarla gözəl ünsiyyət qururdu. Birinci katibin oğlu olmasına baxmayaraq, özünü çox sadə, səmimi aparırdı, dərslərini yaxşı oxuyurdu.

***



МОСКОВСКИЙ ГОСУДАРСТВЕННЫЙ ИНСТИТУТ
МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ МИД СССР

СТУДЕНЧЕСКИЙ БИЛЕТ № 77002

Фамилия Алиев

Имя Ильгам

Отчество Гейдар оглы

Время поступления 25.VIII.77

Факультет МО

Дата выдачи билета 31.VIII.77

İlham Əliyev Moskvaya ali məktəbə sənəd verməyə gedəndə hələ 16 yaşı tamam olmamışdı. Bu yaşda pasport verilmədiyi üçün arayışla getməli oldu. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) ən gənc tələbəsi adını qazandı.

İlk müstəqil həyat və ünsiyyət təcrübəsinə burada yiyələndi. İnstitutu bitirəndən sonra SSRİ-nin xarici ölkələrindən birində səfirliyə təyinat




alsa da, institutda qalmağı üstün tutdu. Aspiranturaya daxil oldu, dissertasiya müdafiə etdi, 23 yaşında alma-materdə müəllim işləməyə başladı. Adı bu məşhur ali məktəbin tarixinə ən gənc müəllim kimi düşdü.

Ümumiyyətlə, İlham Əliyevin həyatının 15 ili MDBMİ ilə bağlı olub. Həmin dövrü unudulmaz illər adlandıran İlham Əliyev Rusiya telekanallarına müsahibəsində belə deyirdi: Tələbəlik illəri hər bir insan üçün xüsusi illərdir. Bu, yetkinləşmək, müstəqil həyata qədəm qoymaq illəridir.

Həmin illər mənə bilik, ünsiyyət təcrübəsi verib. Bu, ilk müstəqil həyat təcrübəsi idi.

Bu nüfuzlu institut da, öz növbəsində, məzunları arasında ilk Prezident olan İlham Əliyevlə qürur duyur.

**MDBMİ-nin sabiq rektoru Nikolay Lebedevin dediklərindən:** Mən İlham Əliyevə həmişə beş vermişəm. O, bu qiymətə çiçəklənən dövlətin rəhbəri kimi də layiqdir.

***



Azərbaycan müstəqilliyin ilk illərində ağır iqtisadi-sosial böhran yaşayırdı. Dövlət xəzinəsi boş olduğundan heç bir iş görmək mümkün deyildi və ümid yalnız dəniz neftinə idi. Buna görə də Ulu Öndər hər vəchlə xarici şirkətləri Xəzər neftinin çıxarılmasına cəlb etməyə çalışırdı.

Tərəflərin hər biri öz marağında israr etdiyi üçün danışıqlar çətin gedirdi. 1994-cü ilin martında Bakıda başlayan danışıqlar sonralar İstanbulda və Hyustonda davam etdirildi. Qarşı tərəf çox ağır şərtlər irəli sürürdü. Bundan sonra Ulu Öndər o vaxt Dövlət Neft Şirkətinin xarici əlaqələr üzrə vitse-prezidenti vəzifəsində işləyən İlham Əliyevi Vaşinqtona göndərdi. O, beynəlxalq hüquq məsələləri sahəsində dərin biliyi, opponentləri inandırmaq bacarığı sayəsində məsələni yoluna qoya bildi.

Müşahidələr göstərir ki, İlham Əliyev şəxsi xidmətlərini qabartmağı xoşlamır. Neft danışıqlarında iştirakı barədə də nadir hallarda danışır. Neft Daşlarının 70 illik yubileyindəki çıxışında yalnız onu dedi ki, ABŞ-ın Hyuston şəhərində bir aydan çox davam edən danışıqlar həlledici rol oynadı: "Dövlət Neft Şirkətinin rəhbərliyi - bizim dostumuz rəhmətlik Natiq Əliyev, Xoşbəxt Yusifzadə, Valeh Ələsgərov, mən və digər əməkdaşlar çalışırdıq investorları inandıraq ki,










Azərbaycana sərmayə qoymaq olar, sərmayə qoymaq lazımdır və Azərbaycana bu gün sərmayə qoyan sabah böyük fayda görəcək. Belə də oldu. "Əsrin kontraktı"nın icrasına qoyulmuş sərmayə artıqlaması ilə qaytarıldı. Xarici investorlar milyardlarla dollar gəlir əldə etdilər. Azərbaycan dövləti yüz milyard dollardan çox gəlir əldə etdi".

**Danışıqların iştirakçısı olmuş Xoşbəxt Yusifzadənin dediklərindən:** "O vaxt müstəqillik yoluna təzəcə qədəm qoymuş Azərbaycanda neftçi mütəxəssislərin xarici şirkətlərlə danışıqlarda kifayət qədər təcrübəsi yox idi. Lakin Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirib, alimlik elmi dərəcəsi almış və sonra da



həmin institutda dərs demiş İlham Əliyevin ingilis dilini və beynəlxalq hüquq məsələlərini gözəl bilməsi, tərəfdaşlarımızla birbaşa ünsiyyət qurub, mürəkkəb vəziyyətlərdən çıxış yollarını tapmaq və gərginliyi aradan qaldırmaq məharəti Vaşinqtonda səlahiyyətli şəxslərlə görüşlərdə də özünü göstərdi".

"Əsrin müqaviləsi" adını almış həmin neft kontraktı Azərbaycanı inkişaf yoluna çıxardı,






bütövlükdə ölkənin sonrakı taleyində həlledici rol oynadı. Bu il sentyabrın 18-də "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağından 4 milyardıncı barel neft hasil edilib. 2021-ci ilin noyabrına olan məlumata görə, Neft Fondunun AÇG layihəsi üzrə gəliri 154 milyard 670 milyon dolları ötüb.

***

On səkkiz il əvvəl Azərbaycan zamanın yeni çağırışı ilə üz-üzə qalarkən xalq öz gələcək taleyini Ulu Öndərimizin siyasi varisi İlham Əliyevə etibar etdi və bu inamında yanılmadı. Bu illər ərzində istər iqtisadi-sosial, istərsə də idarəçilik sisteminin təkmilləşdirilməsi və islahatların dinamizmi baxımından Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmayıb.

Son 18 ildə Azərbaycan modernləşərək yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Gözlərimiz qarşısında baş verən bu misilsiz inkişaf xalqın rifahının yüksəlməsi, mövcud problemlərin həlli ilə müşayiət olunub, dövləti və xalqı vahid platformada birləşdirib.

Qlobal miqyasda baxılarsa, məsələ heç də təbii sərvətlərdə deyil. Nefti və qazı Azərbaycandan qat-qat çox olan ölkələr var ki, yoxsulluq və səfalət içərisində yaşayır. Söhbət, ilk növbədə, liderin həlledici rolundan gedir. Yaxın və uzaq tarixdən buna çoxlu misallar gətirmək olar. Praqmatizm, çevik və məqsədyönlü dövlət siyasəti, uzaqgörənlik və həlledici anlarda qəti qərarlar qəbul etmək bacarığı, yüksək idarəçilik məharəti və humanistlik - bütün bunlar Prezident İlham Əliyevə xas olan liderlik keyfiyyətləridir. Azərbaycanın inkişafı, milli maraqlarımızın yüksək səviyyədə qorunması və təmin edilməsi dövlətimizin başçısının bu və digər ali keyfiyyətləri sayəsində mümkün olub.

İlham Əliyev Prezident seçildiyi ilk gündən deyib ki, ulu öndər Heydər Əliyevin siyasətini davam etdirəcək. Deyib ki, hər bir vətəndaşın






Prezidenti olacaq. Deyib ki, biz öz torpaqlarımızın işğalı ilə heç vaxt barışmayacağıq, Azərbaycan ərazilərində ikinci Ermənistan dövləti yaradılmasına yol verməyəcəyik. Bu və digər vədlərin hər biri əməli işlərlə tamamlanıb.

Nəticə göz qabağındadır: Azərbaycan heç vaxt tarixdə bu qədər güclü və qüdrətli olmayıb. Qazanılan uğurlar sırasında Qarabağ Zəfəri xüsusi

yer tutur. Prezidentimiz iqtisadiyyatı və ordumuzu gücləndirərək, diplomatik müstəvidə illər boyu yorulmadan fəal və təsirli iş apararaq, xalqımızı öz ətrafında yumruq kimi birləşdirərək Qələbəni addım-addım yaxınlaşdırdı. Ulu Öndərin vəsiyyətini yerinə yetirərək bizi doğma







Qarabağımıza qovuşdurdu. Azərbaycanı qalib ölkəyə çevirdi, adını tariximizə qızıl hərflərlə yazdırdı. Prezident İlham Əliyev bu mənada da xoşbəxt dövlət başçısıdır ki, 60 yaşını ərazi




bütövlüyü təmin olunmuş ölkənin, qalib xalqın Prezidenti kimi qeyd edir.

Qarabağ Zəfəri həm də türk dövlətlərinin ümumi qələbəsi kimi dəyərləndirilir və Prezidentimizin "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması bunun əyani təsdiqidir.

Bu gün hərtərəfli inkişaf edən, dünyada öz sözü və çəkisi olan qalib ölkə - Azərbaycan İlham Əliyevin əsəridir. Son 18 ildə regionda həyata keçirilən bütün qlobal layihələrdə Azərbaycanın, müdrik Prezidentimizin imzası var. Türkiyə və Azərbaycanı, Mərkəzi Asiya və Çini birləşdirən










Bakı-Tbilisi-Qars dəmir yolu xəttini, yeddi ölkəni əhatə edən, dəyəri 40 milyard dollar olan Cənub Qaz Dəhlizi layihəsini qeyd etmək kifayətdir. Bu layihə çərçivəsində Azərbaycan qazının Avropaya çatdırılması müasir neft-qaz epopeyamızın ən parlaq fəslidir.

Müasir Azərbaycan adlı əsərin digər parlaq fəsillərini dünyada böyük maraq doğuran inkişaf modelləri, intellektual brendlər təşkil edir. Son vaxtlar bu sıraya müharibənin Azərbaycan modeli də əlavə olunub. XXI əsrin müharibəsini apararaq çətin relyefə malik böyük ərazini 44 gündə azad edən Azərbaycanın hərb təcrübəsi dünyanın inkişaf etmiş ölkələrində öyrənilir.

***














Təbii ki, hər bir uğur yolu başlanğıcını ailə ocağından götürür. Prezident İlham Əliyev dahi şəxsiyyət və tələbkar ata olan Heydər Əliyevin, görkəmli alim və həssas ana olan Zərifə Əliye-







vanın tərbiyəsini görüb, Ulu Öndərin məktəbini keçib.

Tale ona Mehriban xanım kimi əsil-nəcabətli, mənən zəngin, xeyirxah və dəyanətli ömür-gün yoldaşı nəsib edib.

Prezident İlham Əliyev müsahibələrinin birində deyir: "Mən o insanlardanam ki, işə sevinə-sevinə gedir və işdən evə sevinə-sevinə qayıdıram". Deyir ki, asudə vaxtını ailəsi ilə keçirir, həyat üçün enerjini məhz ailəsində alır.

Mehriban xanım Əliyeva Prezidentin ən yaxın silahdaşıdır. Birinci xanım kimi üzərinə düşən missiyanın məsuliyyətini dərindən dərk edərək, ölkə üçün taleyüklü məsələlərin həllində dövlətimizin başçısına çox böyük dəstək verir. Onların azad edilmiş ərazilərə birgə səfərləri buna ən yeni nümunədir.

***

Zəmanəmizdə öz xalqı tərəfindən İlham Əliyev qədər sevilən dövlət başçıları çox azdır. Yüksək intellekti, dərin ensiklopedik bilikləri, diplomatiya sahəsində məharəti, dəmir məntiqi, sözübütövlüyü ona beynəlxalq aləmdə böyük nüfuz qazandırıb. Vətən müharibəsindəki tarixi Zəfər bu məziyyətlərə böyük sərkərdəlik qabiliyyətini də əlavə etdi. Azərbaycan xalqı indi öz Prezidentini tam haqlı olaraq Müzəffər Ali Baş Komandan adlandırır. Bu gün 60 illik yubileyi xalqımız tərəfindən sevinc və qürurla qeyd edilən Prezidentimizin uğur yolu AZƏRTAC tərəfindən anbaan, günbəgün salnamələşdirilib.

Xalqımız və hər bir qədirbilən azərbaycanlı zəmanəmizin ən görkəmli liderlərindən biri olan, beynəlxalq arenada mühüm rol oynayan Prezidenti ilə qürur duyur. On səkkiz il əvvəl başlayan uğur yolu Azərbaycanı zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparmaqdadır.








**AzərTac**

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

**Möhtərəm cənab Prezident!**

Zati-alilərinizi 60 illik yubileyiniz münasibətilə ədliyyə işçiləri adından ürəkdən təbrik edir, Vətənimizin daha da qüdrətlənməsi və xalqımızın firavan gələcəyi, işğaldan azad edilmiş torpaqlarımızın dirçəldilməsi naminə misilsiz fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayırıq.

Müstəqilliyimizin banisi ümummilli lider Heydər Əliyevin siyasi varislik missiyasını layiqincə yerinə yetirərək, Siz son 18 ildə xalqın böyük rəğbəti, inamı və dəstəyi ilə uğurlu rəhbərliyiniz, müstəqil və uzaqgörən siyasətinizlə Azərbaycanı dünyada sürətli inkişaf yolu keçən ən islahatçı ölkəyə, yüksək nüfuza və hörmətə sahib etibarlı tərəfdaşa çevirmisiniz.




Müasir tariximizin qızıl dövrü kimi xarakterizə edilən bu illər ərzində dövlətimizi qlobal böhranlardan qorumuş, o cümlədən pandemiya şəraitində müdrik və gələcəyə hesablanmış strategiyanızla iqtisadiyyatımızın möhkəmləndirilməsini, əhalinin sosial müdafiəsinin gücləndirilməsini təmin etmiş, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi müasir ordu quruculuğu məqsədyönlü şəkildə aparmaqla dünyada 5-ci nəsil silah-sursat və hərbi texnika ilə təchiz olunmuş güclü ordu yaratmağa, milli, vətənpərvər ruhda yeni nəslin yetişməsinə nail olmusunuz.

Praqmatik və balanslaşdırılmış siyasətiniz nəticəsində Azərbaycanın siyasi, iqtisadi, hərbi qüdrəti, beynəlxalq arenada nüfuzu daim yüksəlmiş, dünyanın aparıcı dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı səmərəli əlaqələri genişlənmişdir.

Bütün bunlar xalqımızı qətiyyətli lider, orduya layiqincə komandanlıq edən dünya siyasətinə dərindən bələd olan, rəhbər, hər bir azərbaycanlının Prezidenti olduğunu daim təsdiq edən əzmkar dövlət başçısı kimi Zati-alilərinizin ətrafında dəmir yumruq kimi sıx birləşdirmişdir.

Müzəffər Ali Baş Komandan kimi yenilməz sərkərdəliyiniz və bənzərsiz diplomatik məharətinizlə Vətən müharibəsində doğma torpaqlarımız 30 illik erməni işğalından azad edilərək düşmən üzərində Azərbaycanın çoxəsrlik

tarixində bənzəri olmayan parlaq Zəfər qazanılmışdır.

Xalqımız, ürəyi Vətən sevgisi ilə döyünən dünyada yaşayan soydaşlarımız bu Qələbə sevincini yaşatdığınız üçün Sizinlə daim fəxr edir, Ulu Öndərin ən ümdə vəsiyyətini, hər bir azərbaycanlının arzularını gerçəkləşdirdiyiniz üçün sonsuz minnətdar olmaqla Sizi dərin rəğbət və sevgi ilə əbədi Prezident kimi görürlər.

Qalib xalq olaraq qeyd etdiyimiz Böyük Qələbənin ilk ildönümünə təsadüf edən əlamətdar yubileyinizdə yüksək qürur hissi ilə vurğulayırıq ki, rəhbərliyinizlə azad edilmiş ərazilərimizin qısa müddətdə sürətli bərpa-quruculuq işləri aparılmaqla dirçəldilməsi xalqımızda böyük iftixar hissi ilə qarşılanır, soydaşlarımızın öz dədə-baba yurdlarına tezliklə qayıdacağına qəti əminlik yaradır.

Bölgədə yeni reallıqlar yaratmaqla davamlı sülh və sabitliyin əldə olunması naminə keçirdiyiniz beynəlxalq görüşlərdə Azərbaycanın milli maraqlarını fədakarcasına qorumağınız, bu sahədə fəal və uğurlu diplomatiyanız hər birimizin qəlbini fərəh hissi ilə doldurur.

**Möhtərəm cənab Prezident!**

Doğma Qarabağımızda gedən genişmiqyaslı quruculuq işləri ilə paralel olaraq rəhbərliyinizlə digər bölgələrimizin hərtərəfli davamlı inkişafı, sosial infrastruktur layihələrin uğurla icrası, insanların rifahının yaxşılaşdırılması üçün həyata keçirdiyiniz ardıcıl tədbirlər Prezident-xalq birliyini günbəgün gücləndirir.

Ölkə həyatının müxtəlif sahələrinin inkişafına dair, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə tarixi, mədəni və dini abidələrimizin bərpası ilə bağlı mühüm layihələrin reallaşdırılmasında, humanizm, tolerantlıq ideya və prinsiplərinin uğurla həyata keçirilməsində, mötəbər beynəlxalq tədbirlərin, forumların və yarışların yüksək səviyyədə təşkilində ən sadiq silahdaşınız olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və nəcib fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Zəfər Günü münasibətilə amnistiya elan edilməsi ilə bağlı təşəbbüsünüz humanizm siyasətinizin növbəti əyani təzahürü olmaqla minlərlə ailəyə böyük sevinc hissi bəxş etmişdir.

İdman ölkəsi kimi tanınan Azərbaycanın dünyamiqyaslı yarışlara uğurla ev sahibliyi etməsi, bu ərəfədə III MDB Oyunlarının 2025-ci ildə ölkəmizdə keçirilməsi ilə bağlı mühüm qərarın qəbulu respublikamızda idman və olimpiya hərəkatına yüksək diqqət və qayğınızın əyani təzahürüdür. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin yenidən prezidenti seçilməyiniz bu sahənin gələcək inkişafına və böyük nailiyyətlərə təminat verir.

Azərbaycan ədliyyəsinə hər zaman göstərdiyiniz qayğılı münasibət, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsində, məhkəmə hakimiyyətinin möhkəmləndirilməsində güclü siyasi iradəniz və dəstəyiniz dərin minnətdarlıq hissi ilə qarşılanmaqla hər birimizi Zati-alilərinizin ətrafında sıx birləşərək qarşıda duran vəzifələri sədaqətlə və daha məsuliyyətlə yerinə yetirməyə səfərbər edir.

**Möhtərəm cənab Prezident!**

Qəti əminik ki, bu gün özünün ən şanlı dövrünü yaşayan Azərbaycan və zəfərlə ilhamlanıb, "dəmir yumruq"dan güc alan xalqımız rəhbərliyinizlə bundan sonra da yeni-yeni möhtəşəm qələbələrin şahidi olacaqdır.

Əlamətdar yubileyiniz münasibətilə bir daha ürəkdən təbrik edir, Sizə, güclü dayağınız olan ailənizə, vətənpərvər və istedadlı övladlarınıza və sevimli nəvələrinizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və daim fərəhli günlər arzulayır, doğma Azərbaycanımızın hərtərəfli tərəqqisi və qüdrətlənməsi naminə şərəfli fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

**Dərin hörmət və ehtiramla,**

**Fikrət Məmmədov,**
**Azərbaycan Respublikasının ədliyyə naziri,**
**Məhkəmə-Hüquq Şurasının sədri**

*24 dekabr 2021-ci il*

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi ədliyyə orqanlarında yad edilib



**Müstəqil dövlətimizin banisi və qurucusu ümummilli lider Heydər Əliyevin müstəqilliyimizin qorunub möhkəmləndirilməsində, ölkəmizin hərtərəfli tərəqqisində misilsiz xidmətləri qədirbilən xalqımız tərəfindən daim uca tutulur, əziz xatirəsi dərin ehtiramla anılır.**

Ulu Öndərin vəfatının ildönümü ilə bağlı Ədliyyə Nazirliyində və struktur qurumlarda anım mərasimləri keçirilib, nazirliyin rəhbərliyi dekabrın 12-də Fəxri xiyabana gələrək Ümummilli Liderin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyaraq dahi rəhbərə sonsuz ehtiramlarını bildiriblər. Həmçinin akademik Zərifə xanım Əliyevanın məzarı önünə tər çiçəklər düzülüb.

Eyni zamanda nazirlikdə əbədiyaşar liderin büstü önünə gül səbəti qoyulub, əziz xatirəsi yad edilib. Heydər Əliyev muzeyində keçirilən tədbirdə bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan Ulu Öndərin şərəfli və mənalı həyat yoluna, zəngin dövlətçilik irsinə nəzər salınıb, milli özünüdərkin və vətənpərvərliyin gücləndirilməsində müstəsna xidmətləri xüsusilə qeyd olunub, işıqlı xatirəsinin xalqımızın yaddaşında əbədi yaşayacağı bildirilib.

Dahi Heydər Əliyevin qurub yaratdığı müasir Azərbaycan dövlətinin Ümummilli Liderin siyasi varisi, ölkə Prezidenti İlham Əliyevin uzaqgörən və müstəqil siyasəti ilə uğurla inkişaf etdiyi qeyd olunub, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış parlaq Qələbə nəticəsində torpaqlarımızın 30 illik erməni işğalından azad edilməklə Ulu Öndərin ən ümdə vəsiyyətinin şərəflə yerinə yetirilməsi xüsusilə vurğulanıb.

Bildirilib ki, dövlət başçısının rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda intensiv quruculuq işləri aparılır, tarixi, mədəni və dini abidələrimizin bərpası ilə bağlı Ümummilli Liderin ideyalarını layiqincə yaşadan Heydər Əliyev Fondunun rəhbəri, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsləri ilə mühüm layihələr gerçəkləşdirilir.

Keçirilən tədbirlərdə Azərbaycan ədliyyəsinin formalaşması və inkişafının Ulu Öndərin adı ilə bağlı olduğu, ədliyyə işçilərinin dahi rəhbərin yüksək ideyalarına daim sadiq qalaraq Vətənimizin hərtərəfli tərəqqisi naminə ölkə Prezidentinə layiqli yardımçı olmaq üçün var qüvvələri ilə çalışmaq əzmində olduqları qeyd edilib.

Nazirliyin muzeylərində Ümummilli Liderə həsr olunan zəngin və maraqlı ekspozisiyalarla tanışlıq olub, filmlər, eləcə də foto və video slaydlar nümayiş etdirilib, mətbuatda çıxışlar edilib, nazirliyin sosial şəbəkə səhifələrində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən materiallar paylaşılıb.

# PREZİDENT İLHAM ƏLİYEV ƏDLİYYƏ VƏ MƏHKƏMƏ SİSTEMİNDƏ MÜASİR İSLAHATLARIN MÜƏLLİFİDİR

## Ədliyyə Nazirliyinin 2021-ci ilin yekunlarına həsr olunan kollegiya iclası

**Dekabrın 30-da ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilən kollegiya iclasında ədliyyə orqanları tərəfindən 2021-ci ildə görülmüş işlərə yekun vurulub, qarşıda duran vəzifələr müzakirə olunub.**

Çıxış edən nazir ölkə Prezidenti cənab İlham Əliyevin müstəqil və uzaqgörən siyasəti ilə son 18 ildə Azərbaycanın dünyada sürətlə inkişaf edən ən islahatçı dövlətə çevrildiyini, ölkəmizin siyasi, iqtisadi, hərbi qüdrətinin artdığını, xalqımızın dəmir yumruq kimi sıx birləşdiyini qeyd edərək Vətən müharibəsində parlaq qələbəmizin təmin edildiyini vurğulayıb.

2021-ci ildə Böyük Qələbənin ilk ildönümünün qalib xalq kimi yüksək qürur hissi ilə qeyd edildiyi, işğaldan azad edilmiş doğma torpaqlarımızın dövlət başçısının rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə nəhəng bərpa-quruculuq işləri aparılmaqla göz önündə dirçəldiyi bildirilib.

Dövlət başçısının təşəbbüsü ilə noyabrın 5-də Zəfər Günü münasibətilə amnistiya qərarının qəbulu ölkə Prezidentinin humanizm siyasətinin növbəti təzahürü olmaqla minlərlə ailəyə böyük sevinc hissi bəxş etdiyi vurğulanıb, ədliyyə orqanları tərəfindən bu humanist aktın təxirəsalınmadan, mütəşəkkil qaydada icrası üzrə görülən tədbirlər qeyd olunub.



Bildirilib ki, ötən müddətdə amnistiyanın təsiri altına düşən məhkumlardan artıq 2600-dan çoxu penitensiar müəssisələrdən azadlığa buraxılıb və 950-dək şəxsin cəza müddəti azaldılıb, probasiya xidmət üzrə isə 4600-dən çox şəxs müxtəlif cəzalardan azad edilib, 182 şəxsin isə cəzası azaldılıb. Hazırda amnistiya qərarının icrası davam edir.

İclasda ölkə Prezidentinin rəhbərliyi ilə respublikamızın hərtərəfli inkişafına uyğun olaraq ədliyyə və məhkəmə sistemində islahatların davam etdirildiyi, 2021-ci ildə üç yeni yüksək texnoloji məhkəmə bina və komplekslərinin istifadəyə verildiyi diqqətə çatdırılıb.

Həmçinin, Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planının, "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın icrası ilə bağı görülən tədbirlər qeyd edilərək, bu mühüm sənədlərin vaxtında və mütəşəkkil icrasının vacibliyi vurğulanıb.

Kollegiyada ədliyyə fəaliyyətinin əsas istiqamətləri üzrə cari ildə görülmüş işlər təhlil edilərək məlumat verilib ki, qanunyaradıcı fəaliyyətdə aktiv iştirak edən nazirlik tərəfindən iqtisadi, sosial və digər aktual məsələlərlə bağlı ötən illə müqayisədə 35% çox - 2.400-ə yaxın hüquqi akt layihəsi hazırlanıb, 3.400-dən çox akt ekspertizadan keçirilib.

Vətəndaş məmnunluğunun təmin olunması məqsədilə ictimaiyyət üçün daim açıq saxlanılan və mütəmadi yenilənən milli qanunvericiliyin vahid elektron resursuna (e-qanun.az) daxilolmaların sayı 2,8 milyonu ötüb ki, bu da ötən illə müqayisədə 25% çoxdur.

Ölkə iqtisadiyyatının inkişafı və mülki dövriyyənin artması nəticəsində notariat hərəkətlərinin sayı çoxalaraq 4.3 milyonu ötüb. Həmçinin 111 mindən çox doğum qeydə alınıb, habelə nikahların sayı xeyli artaraq 55 mini keçib.

Kollegiyada nazirliyin beynəlxalq hüquqi əməkdaşlığına toxunularaq bir sıra mötəbər

beynəlxalq forumlarda iştirak edildiyi, ədliyyə sahəsində ikitərəfli əlaqələrin genişləndirilməsi çərçivəsində Estoniya ilə əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalandığı və sənədin ölkə Prezidentinin 20.12.2021-cil tarixli Fərmanı ilə təsdiq edildiyi diqqətə çatdırılaraq Memorandumun səmərəli implementasiyası ilə bağlı tapşırıqlar verilib.

Eyni zamanda, qarşıda duran vəzifələr müzakirə olunaraq, ədliyyə fəaliyyətinin dövlət başçısının yüksək tələbləri səviyyəsində qurulması, yol verilən xarakterik nöqsanların səbəb və şəraitinin aradan qaldırılması, vətəndaşlara layiqli xidmətlər göstərməklə məmnunluğun təmin edilməsi, şəffaflığın artırılması, ictimai iştirakçılığın səmərəli tətbiqi ilə bağlı tapşırıqlar verilib, növbəti ildə prioritet istiqamətlər üzrə görülməsi konkret tədbirlər müəyyən edilib.

Sonda ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ sənəd layihələri təsdiq edilib, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

## Məhkəmə-Hüquq Şurasının iclası

**Dekabrın 20-də Məhkəmə-Hüquq Şurasının videokonfrans formatında iclası keçirilib. Çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş tərəqqi yolunun cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdirildiyini vurğulayıb, ölkə başçısının 18 illik fəaliyyətinin xalqımızın Böyük Qələbəsini təmin etdiyini bildirib.**

Bu illər ərzində respublikamız iqtisadi, siyasi, hərbi cəhətdən möhkəmlənib və əldə edilmiş nailiyyətlərə görə dünyada ən islahatçı ölkələrdən biri kimi xarakterizə olunub. Vətən müharibəsində Azərbaycan Ordusu dövlətimizin qüdrətini, unikal hərbi əməliyyatları ilə dünyanın ən güclü 50 ordusundan olduğunu bir daha təsdiq edib.

Bildirilib ki, işğaldan azad olunmuş doğma torpaqlarımız ölkə Prezidentinin qətiyyəti və yenilməz iradəsi ilə yenidən dirçəlir, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahədə nəcib təşəbbüsləri ilə mühüm layihələr həyata keçirilir.



Respublikamızın hərtərəfli inkişafına uyğun olaraq ölkə Prezidenti cənab İlham Əliyevin müəllifliyi ilə məhkəmə-hüquq sistemində də mütərəqqi islahatlar aparılır. Bu sahədə islahatların dərinləşdirilməsi haqqında 03.04.2019-cu il tarixli Fərman işin müasir çağırışlara uyğun yeni mərhələdə təşkilini şərtləndirib.

Fərmana uyğun olaraq dövlət başçısının qanunvericilik təşəbbüsü ilə mühüm qanunlar qəbul edilib, o cümlədən məhkəmə icraatı zamanı çevikliyin təmin edilməsi, süründürməçilik və mümkün sui-istifadə hallarının qarşısının alınması məqsədilə qanunvericiliyə mütərəqqi dəyişikliklər edilib, cəza siyasəti humanistləşdirilib, hakimlərin və məhkəmə aparatı işçilərinin maddi və sosial təminatı yaxşılaşdırılıb.

Məhkəmələrə əlçatanlığın asanlaşdırılması məqsədilə yeni regional məhkəmələr təsis edilib, məhkəmə icraatında şəffaflığın artırılması üçün İKT-lərin tətbiqi genişləndirilib, "Elektron məhkəmə" informasiya sisteminin bütün ölkəni əhatə etməsi üzrə tədbirlər görülüb, vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün işlək mexanizmlər yaradılıb.

Məhkəmə fəaliyyətinə mənfi təsir göstərən amillərdən biri kimi hakimlərin iş yükünün çox olması nəzərə alınaraq, ölkə Prezidenti tərəfindən hakim-

lərin sayının ötən dövrdə dəfələrlə, o cümlədən qeyd edilən Fərmanla bütün hakim sayının daha üçdə biri qədər artırıldığı vurğulanıb.

Bildirilib ki, hakimlərin Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçim qaydasına uyğun olaraq vakansiyaların dərin biliklərə və yüksək mənəvi keyfiyyətlərə malik gənc hüquqşünaslarla komplektləşdirilməsi ilə bağlı davamlı seçim prosesi aparılır. Hakim korpusunun 75%-dən çoxu məhz şəffaf seçim əsasında təyin olunan yeni nəsil hüquqşünaslardır.

Hazırda hakimliyə namizədlərin seçimi üzrə açıq müsabiqə fasiləsiz xarakter alıb. Test imtahanının İKT-lərin tətbiqi ilə keçirilməsi və nəticələrin dərhal elan edilməsi təmin olunub. Bu prosedurlarla cari ildə 44 nəfər müxtəlif birinci instansiya məhkəmələrinə hakim təyin edilib, 220-dək namizəd isə müsabiqələrin müxtəlif mərhələsindədir.

Həmçinin, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında məhkəmə infrastrukturunun müasirləşdirilməsinin əhəmiyyəti nəzərə alınaraq dövlət başçısının tapşırığı ilə paytaxtda və bölgələrdə yeni məhkəmə bina və komplekslərinin inşa olunaraq istifadəyə verildiyi, onların "yüksək texnoloji" (hi-tech) məhkəmələrə çevrildiyi bildirilib. Həmin binaların açılışlarında Prezident İlham Əliyevin şəxsən iştirakının, təkcə bu il ərzində Suraxanı, Sumqayıt və Masallı məhkəmələri üçün yeni bina və komplekslərinin istifadəyə verilməsinin dövlət başçısının məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin təzahürü olduğu vurğulanıb.

İclasda məhkəmə hakimiyyətinin inkişafına və müstəqilliyinin təmin edilməsinə xüsusi diqqət və qayğı göstərildiyinə və xalqımıza tarixi Zəfər günləri yaşatdığına görə dövlət başçısına dərin minnətdarlıq və ehtiram ifadə olunub, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin gündən-günə inkişaf edərək daha da qüdrətlənəcəyinə qəti əminlik ifadə edilib.

Həmçinin, ölkə Prezidentinin tapşırıqlarının icrası çərçivəsində hakimlərin fəaliyyətinin tam obyektiv qiymətləndirilməsi üzrə ardıcıl tədbirlərin görüldüyü xüsusi vurğulanıb. Hər bir hakimin məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və etimadın möhkəmləndirilməsi üçün fəaliyyətində qanunçuluq, ədalət, qanun qarşısında bərabərlik, aşkarlıq və ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etməsinin vacibliyi qeyd edilib.

Bildirilib ki, ötən il Şura tərəfindən mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla hakimlərin fəaliyyətinin hərtərəfli və şəffaf meyarlar əsasında qiymətləndirilməsinə dair yeni Qaydalar qəbul edilib. Bu Qaydalara uyğun olaraq cari ildə 120-dək hakimin fəaliyyəti prinsipial qiymətləndirilərək 3 nəfərin səlahiyyətlərinə xitam verilib, 14 nəfərin fəaliyyətində peşəkar çatışmazlıqlar müəyyən olunaraq 6 aydan sonra təkrar qiymətləndirilmələri qərara alınıb. Təkrar qiymətləndirmə zamanı onların fəaliyyətlərində yenidən peşəkar çatışmazlıq aşkar edilərsə səlahiyyətlərinə qanunla müəyyən edilmiş qaydada xitam veriləcəkdir.

İclasda 2018-ci ildə hakim vəzifəsinə təyin olunmuş 107 nəfərin səlahiyyət müddətlərinin başa çatması ilə əlaqədar onları xarakterizə edən rəy, sənəd və digər materialların toplanıldığı bildirilib, habelə ətraflı təhlillər aparılmaqla fəaliyyətləri hərtərəfli qiymətləndirilib. Onların əksəriyyəti hakimliyə yararlı hesab edilib, habelə vətəndaşların haqlı narazılığını doğuran pozuntulara yol verən 3 nəfərin səlahiyyətlərinə xitam verilməsi, fəaliyyətində fərqlənən 8 nəfərin apellyasiya məhkəmələrinə irəli çəkilməsi, digərlərinin isə müxtəlif birinci instansiya məhkəmələrinin hakimi vəzifələrinə təyin edilməsi məqsədəuyğun sayılıb.

Həmin hakimlərin peşəkarlığına, müvafiq sahələrdə yüksək nəzəri və praktiki hazırlığına, mənəvi saflığına, etik davranışına xüsusi diqqət yetirilməklə onların təyinatı ilə bağlı təkliflər hazırlanaraq dövlət başçısına təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21.12.2021-ci il tarixli Sərəncamı ilə Məhkəmə-Hüquq Şurasının həmin təklifləri nəzərə alınaraq qeyd edilən hakimlər barədə müvafiq təyinatlar aparılıb.

# Ölkə Prezidentinin vətəndaşlara qayğısı minnətdarlıqla qarşılanır






**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin respublikamızın hərtərəfli tərəqqisi, insanların sosial rifahı naminə müdrik siyasəti, qəbul etdiyi ardıcıl mühüm qərarlar əhali tərəfindən daim dəstəklənir. Vətən müharibəsində Böyük Qələbəmiz Prezident-Xalq birliyinin təntənəsi olub.**

Verdiyi vədləri şərəflə yerinə yetirən dövlət başçısı hər bir vətəndaşın prezidenti olduğunu Vətənə və xalqa sədaqətlə xidmət etməklə təsdiq edir. Bütün bunlar vətəndaşların ölkə rəhbərinə ünvanladığı çoxsaylı məktub və müraciətlərdə də aydın ifadə olunur.

Dövlət başçısının insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə, o cümlədən şəhid ailələrinin və müharibə iştirakçılarının qayğılarına həssaslıqla yanaşılması ilə bağlı tapşırıqlarının icrası Ədliyyə Nazirliyində daim diqqətdə saxlanılır. Pandemiya şəraitinin davam etməsi nəzərə alınaraq müraciətlərə elektron qaydada baxılması təmin edilir, videoformatda mütəmadi qəbullar keçirilir.

Cari ildə videoqəbullar zamanı paytaxtın və müxtəlif rayon və şəhərlərin, o cümlədən Qarabağ və Şərqi Zəngəzur bölgəsindən olan ümumilikdə 700-ə yaxın vətəndaşların, şəhid ailə üzvlərinin və hərbçilərin müraciətləri dinlənilərək qaldırılan məsələlərin həlli ilə bağlı zəruri tədbirlər görülüb.

Dekabrın 22-də ədliyyə naziri Fikrət Məmmədov tərəfindən paytaxtda və bölgələrdə yaşayan vətəndaşların növbəti videoqəbulu keçirilib.

Regional ədliyyə idarələri vasitəsilə qəbula qoşulan hər bir vətəndaş diqqətlə dinlənilib, onların ədliyyə fəaliyyətinə dair müraciətləri araşdırılması üçün nəzarətə götürülərək, konkret tədbirlər görülməsi ilə bağlı aidiyyəti məsul işçilərə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar dövlət başçısı İlham Əliyevin əvəzsiz xidmətləri ilə ölkəmizi daim irəli apardığını, öz Prezidenti ətrafında "dəmir yumruq" kimi sıx birləşən xalqımıza böyük qələbə sevinci yaşatdığını bildirərək, ölkə rəhbərinə əlamətdar yubileyi münasibətilə sevgi dolu səmimi təbriklərini çatdırıblar.

Həmçinin, vətəndaşların qayğılarına həssaslıq və diqqətlə yanaşılaraq müraciətlərinin dinlənilməsi üçün videoqəbulların keçirilməsindən məmnunluq ifadə olunub.

# Beynəlxalq antikorrupsiya fəaliyyətində Azərbaycan mühüm rol oynayır

**Ölkə Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi ilə respublikamızda korrupsiyaya qarşı qəti mübarizə aparılır.**

Bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilərək Azərbaycan 100-dən çox dövləti birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) təşkilatçılarından biri kimi onun işində daim fəal iştirak edir.

9 dekabr - Beynəlxalq Antikorrupsiya Günü ərəfəsində IAACA-nın rəhbər orqanı olan İcraiyyə Komitəsinin videokonfrans formatında iclası keçirilib.

İclasda beynəlxalq antikorrupsiya tədbirləri, qurumun gələcək fəaliyyəti və digər təşkilati məsələlər müzakirə olunub.

Assosiasiyanın vitse-prezidenti, respublikamızın ədliyyə naziri Fikrət Məmmədov tədbirdə çıxış edərək Azərbaycanda dövlət siyasətinin prioriteti olan korrupsiyaya qarşı sərt mübarizə aparıldığını bildirərək bu sahədə ölkəmizin qlobal antikorrupsiya mübarizəsində mühüm rolu olan IAACA ilə fəal əməkdaşlığını vurğulayıb. Nazir təşkilatın gələcək fəaliyyətinə və müzakirə olunan digər mövzulara dair təkliflər irəli sürüb.







Tədbirdə həmçinin, Assosiasiyanın rəhbərliyinin səlahiyyət müddətinin başa çatması ilə əlaqədar qurumun İcraiyyə Komitəsinin yeni tərkibi müəyyənləşdirilib, təşkilatın yeni prezidenti vəzifəsinə Honqkonqun Antikorrupsiya Komissiyasının rəhbərinin namizədliyi təsdiq olunub. Azərbaycanın IAACA-nın işində fəal iştirakı, səmərəli təmsilçiliyi və verdiyi dəyərli töhfələr nəzərə alınaraq, respublikamızın ədliyyə nazirinin yenidən qurumun vitse-prezidenti vəzifəsinə namizədliyi təsdiq edilib.

Eyni zamanda qərara alınıb ki, IAACA-nın fəaliyyətinin səmərəliliyinin artırılması üçün yeni prezident və vitse-prezidentlər konkret regionlar həvalə edilməklə orada antikorrupsiya tədbirlərinin təşviqinə, bu məqsədlə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə cavabdeh olacaqlar.

İclasda həmçinin əsas təşkilati məsələləri həll edən Ümumi Yığıncağın gələn ay keçirilməsinə dair qərar qəbul edilib.

# Avropa ədliyyə nazirlərinin növbəti konfransı keçirilib

## Konfransda Ermənistanın ölkəmizə qarşı əsassız və uydurma ittihamları tutarlı faktlarla tam ifşa olunub

**Dekabrın 13-14-də İtaliyanın Avropa Şurasının (AŞ) Nazirlər Komitəsində sədrliyi çərçivəsində Venesiyada Avropa ədliyyə nazirlərinin konfransı keçirilib.**

Konfransın açılışında AŞ-nın baş katibi Mariya Peyçinoviç Buriç, AŞPA-nın prezidenti Rik Daems, AŞ Venesiya Komissiyasının sədri Canni Bukikio və İtaliyanın ədliyyə naziri Marta Kartabiya giriş sözü ilə çıxış ediblər.

Tədbirdə bərpaedici ədliyyənin tətbiqi, cinayət qurbanları və cinayətkarlar arasında barışığa nail olunması, məhkum edilmiş yeniyetmələrin reinteqrasiyası kimi məsələlər müzakirə olunaraq nazirlər tərəfindən təqdimatlar keçirilib.

Çıxış edən Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə dövlət başçısı cənab İlham Əliyevin müdrik siyasəti nəticəsində davamlı inkişafın, sabitliyin və təhlükəsizliyin təmin olunmasını, mütərəqqi hüquqi islahatların aparılmasını qeyd edib, bərpaedici ədalət mühakiməsinin tətbiqi ilə bağlı Azər-








baycan təcrübəsi ilə bölüşüb.

Eyni zamanda yeniyetmə məhkumların cəmiyyətə reinteqrasiyası üzrə görülən müxtəlif institusional və praktiki tədbirlər, UNICEF və vətəndaş cəmiyyəti ilə effektiv əməkdaşlıq və birgə layihələr qeyd edilib, bu sahədə təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb.

Həmçinin, tədbirdə Ermənistan nazirinin çıxışında ölkəmizə qarşı yersiz verdiyi yalan məlumatları Azərbaycanın ədliyyə naziri tutarlı faktlarla təkzib edərək qarşı tərəfi tam ifşa edib.

F.Məmmədov torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan Ermənistanın növbəti hərbi təxribatlarına cavab olaraq, Azərbaycanın özünümüdafiə hüququna əsaslanmaqla əks-hücum əməliyyatları həyata keçirdiyini və BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasını təmin edərək torpaqlarını işğaldan azad etdiyini bildirib. Müharibə meydanında ağır məğlubiyyətə uğrayan Ermənistanın insanlığa qarşı və müharibə cinayətləri törədərək mülki əhalimizi qəsdən ağır artilleriya qurğularından atəşə tutması nəticəsində 12-si uşaq olmaqla 100-ə yaxın dinc insanın həlak olduğu və 400-dən çox insanın isə yaralandığı qeyd edilib.

Nazir, həmçinin bu günlərdə Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın əsassız iddialarını rədd etdiyini və Ermənistandan azərbaycanlıların insan hüquqlarının pozulmasının qarşısını almaq üçün təcili tədbirlər görməklə bağlı Qərar qəbul etdiyini diqqətə çatdırıb.

Konfransın yekununda bərpaedici ədalət mühakiməsinin Avropada daha geniş tətbiqini təşviq edən Venesiya Bəyannaməsi qəbul olunub.

Səfər çərçivəsində tədbirə ev sahibliyini edən İtaliya, habelə konfransda iştirak edən Türkiyə, Gürcüstan və bir sıra digər dövlətlərin ədliyyə nazirləri ilə ikitərəfli görüşlər keçirilib.




İtaliyanın ədliyyə naziri Marta Kartabiya ilə görüş



Italiyanın Veneto regionunun prezidenti Luka Zaya ilə görüş



Gürcüstanın ədliyyə naziri Rati Breqadze ilə görüş

İtaliyanın ədliyyə naziri Marta Kartabiya ilə keçirilmiş görüşdə ölkələrimizin qədim tarixi köklərə malik dostluq və əməkdaşlıq münasibətlərinə toxunularaq onların strateji tərəfdaşlıq səviyyəsində olması qeyd edilib, bu işdə dövlət başçılarının rolu, xüsusilə Azərbaycan Prezidenti cənab İlham Əliyevin İtaliyaya 2020-ci ildə edilmiş dövlət səfəri çərçivəsində imzalanmış "Çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"nin mühüm əhəmiyyəti vurğulanıb.

Görüşdə ədliyyə və məhkəmə sahəsində qarşılıqlı fəaliyyətin perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb, italiyalı nazir ölkəmizlə hüquqi əlaqələrin inkişafına maraq göstərib.

Eyni zamanda Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Böyük Qələbə nəticəsində işğaldan azad edilmiş torpaqlarımıza İtaliyanın məsul dövlət rəsmiləri və deputatları səfər edərək ərazilərimizin Ermənistan tərəfindən tamamilə dağıdılmasının canlı şahidi olduqları, bölgədə aparılan bərpa-quruculuq işlərində dost dövlət kimi İtaliyanın iştirakı qeyd edilib.

Türkiyənin ədliyyə naziri Abdulhamit Gül ilə görüş keçirilərək dost və qardaş ölkələrimiz arasında müttəfiqlik münasibətləri çərçivəsində inkişaf edən hüquqi əlaqələrdən məmnunluq ifadə olunub, Türk Dövlətləri Təşkilatı çərçivəsində ədliyyə nazirlərinin ilk toplantısının 2022-ci ilin yanvarında İstanbulda keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Gürcüstanın ədliyyə naziri Rati Breqadze ilə keçirilmiş görüşdə iki ölkə arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluq ifadə edilib, Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair yeni hazırlanmış sənədin qonşu dövlətin ədliyyə nazirinin ölkəmizə yaxın gələcəkdə səfəri zamanı imzalanması barədə razılığa gəlinib.

Konfrans zamanı İtaliyanın Veneto regionunun prezidenti Luka Zaya ilə işçi görüş keçirilib. Görüşdə o, dövlətlərimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafını qeyd edib, 2019-cu ildə Azərbaycana səfərini və ölkəmizin Prezidenti cənab İlham Əliyev tərəfindən qəbulunu məmnunluqla xatırladıb. Ölkəmizə maraq göstərən L.Zaya ilə Azərbaycan-İtaliya əlaqələrinin perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

Tədbir çərçivəsində keçirilmiş bütün görüşlərdə həmsöhbətlərin diqqəti xüsusilə Vətən müharibəsində Ermənistanın törətdiyi insanlıq əleyhinə cinayətlərin acı nəticələrinə, həmçinin azad edilmiş torpaqlarımızda işğal dövründə törətdiyi vəhşiliklərə cəlb olunub.

Tədbirlərdə Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə iştirak edib.

# Cinayətkarlıqla mübarizədə ədliyyə sahəsində səmərəli beynəlxalq əməkdaşlıq həyata keçirilir

**Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sabitliyin və təhlükəsizliyin təmin olunması, xüsusilə cinayətkarlığa qarşı mübarizə üzrə qəti tədbirlər görülür, bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. Müxtəlif dövlətlərlə ikitərəfli sazişlər və müqavilələr, Avropa, habelə MDB çərçivəsində çoxtərəfli konvensiyalar üzrə ekstradisiya və hüquqi yardım sahəsində cəzanın labüdlüyü prinsipini təmin edən səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilir.**

Ədliyyə Nazirliyinin Avropa Şurası Cinayət məsələlərində əməkdaşlığa dair Ekspertlər Komitəsinin rəhbərliyində təmsil olunması bu sahədə fəaliyyəti daha effektiv edir. Xüsusilə, qlobal pandemiya şəraitində cinayətkarların təslim edilməsi ilə bağlı operativliyin təmin olunması üçün sorğuların elektron qaydada baxılması barədə xarici həmkarlarla razılığa nail olunub. Ötən dövrdə beynəlxalq axtarışda olan adam oğurluğu, dələduzluq və rəsmi sənədlərin saxtalaşdırılması və digər cinayət əməllərində təqsirləndirilən şəxslərin Almaniya, Türkiyə, Bosniya və Herseqovina, Əlcəzair, Ukrayna və s. dövlətlərdən ölkəmizə ekstradisiyası təmin edilib.

Qeyd olunmalıdır ki, külli miqdarda dələduzluq törədən beynəlxalq axtarışa verilmiş Azərbaycan vətəndaşı bu yaxınlarda Monteneqroda saxlanılıb. Ədliyyə Nazirliyi tərəfindən aparılan danışıqlar nəticəsində onun ekstradisiyası ilə bağlı razılıq əldə edilib və İstanbul hava limanı vasitəsilə ölkəmizə tranzit gətirilməsi qardaş Türkiyə ilə razılaşdırılıb. Nəticədə həmin şəxs nazirliyin əməkdaşları tərəfindən dekabrın 4-də Bakıya gətirilib.

Ümumilikdə isə son 3 il ərzində cinayət törətməkdə təqsirli bilinən 80 nəfərdən çox şəxsin Azərbaycana ekstradisiyası təmin olunub.

Bununla da cinayətkarların özlərini heç yerdə azad və təhlükəsizlikdə hiss etmələrinin qarşısı alınır.

Nazirlik tərəfindən bu sahədə lazımi tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

# Ədliyyə islahatlarına və innovasiyalara dair ”açıq qapı” günü keçirilib

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli inkişafına uyğun olaraq ədliyyə sistemi mütərəqqi islahatlar aparılmaqla təkmilləşir və müasirləşir, vətəndaş məmnunluğunun yüksəldilməsi məqsədilə əhaliyə daha keyfiyyətli hüquqi xidmətlərin göstərilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir.**

Dekabrın 8-də Ədliyyə Nazirliyində vətəndaş cəmiyyəti institutları və KİV nümayəndələrinin iştirakı ilə "Prezident İlham Əliyevin rəhbərliyi ilə vətəndaş məmnunluğuna xidmət edən ədliyyə islahatları və innovasiyalar" mövzusunda media-tur təşkil olunmaqla "açıq qapı" günü keçirilib.

Tədbir iştirakçıları əvvəlcə nazirlik tərəfindən aparılan müxtəlif reyestrlər və elektron informasiya sistemləri, onların funksiyaları, notariat, vətəndaşlıq vəziyyəti aktlarının,









qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı sahəsində innovasiyalar, elektron və mobil xidmətlərlə bağlı yeniliklərlə tanış olublar.

Sonra nazirliyin aidiyyəti rəhbər şəxslərinin iştirakı ilə media nümayəndələri üçün brifinq keçirilərək vətəndaşların daha çox müraciət etdiyi ədliyyə orqanları tərəfindən göstərilən hüquqi xidmətlərin səmərəliliyinin və keyfiyyətinin artırılması ilə bağlı görülən tədbirlər barədə məlumat verilib.

Nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova çıxış edərək ölkə Prezidenti tərəfindən dövlət orqanlarının fəaliyyətində açıq hökumət prinsiplərinin, ictimai iştirakçılığın geniş tətbiqi ilə bağlı tapşırıqlarına uyğun olaraq nazirlik tərəfindən şəffaflığa, ictimaiyyətlə əlaqələrə, media və vətəndaş cəmiyyəti ilə vahid kommunikasiya siyasəti əsasında qarşılıqlı fəaliyyətə xüsusi önəm verildiyini, davamlı olaraq brifinq, mətbuat konfransı, ictimai müzakirə və təqdimatlar, media-turlar təşkil edilməklə dövlət başçısının müasir çağırışlara uyğun həyata keçirdiyi islahatlar və tətbiq olunan yeniliklər barədə ictimaiyyətin mütəmadi məlumatlandırıldığını bildirib, əhalinin hüquqi biliklərinin artırılmasına və vətəndaş məmnunluğuna xidmət edən bu tədbirlərin əhəmiyyətini qeyd edib.

Çıxış edən İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səməd-zadə ədliyyə xidmətlərinin rəqəmsallaşdırılması üzrə görülən işlər, o cümlədən mobil tətbiqlər barədə məlumat verib.

Bildirilib ki, dövlət başçısının rəhbərliyi ilə aparılan genişmiqyaslı iqtisadi islahatlar, sosial əhəmiyyətli layihələr, biznes mühitinin əlverişliyinin artırılmasına, habelə cəmiyyətin rəqəmsal transformasiyasına yönələn tədbirlər xidmət institutunun müasir çağırışlara uyğun təkmilləşdirilməsini şərtləndirir.

Bununla əlaqədar Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq son illər ədliyyə sahəsində innovasiyaların tətbiqi geniş vüsət alıb. Hazırda nazirlik tərəfindən aparılan 10 dövlət əhəmiyyətli informasiya resursunun fəaliyyəti nəticəsində əhaliyə 35-dək elektron xidmət göstərilir, istifadəçilərin sayı son 5 ildə 15 milyon nəfəri ötüb.

Həmçinin, elektron informasiya sistemlərinin inteqrasiyası hesabına məlumat mübadiləsinin aparılması xidmətlər göstərilərkən hər hansı sənədin təqdim olunması zərurətini aradan qaldırıb. Əhalinin birdəfəlik maddi yardım, ünvanlı sosial yardım, övladlığa götürmə, lisenziyaların, icazələrin alınması ilə bağlı aidiyyəti qurumlara müraciət imkanları sadələşdirilib.

Eyni zamanda, böyük ictimai maraq doğuran elektron notariat xidmətlərinin genişləndirilməsi barədə məlumat verilərək ölkədə aparılan bütün notariat hərəkətlərinin "Elektron notariat" informasiya sistemi üzərindən rəsmiləşdirildiyi qeyd olunub. 2008-ci ildən istifadəyə verilmiş və məsafədən xidmət göstəril-

məsinə imkan verən bu sistem müxtəlif qurumlarda, o cümlədən əhalinin sosial həssas təbəqələrinin müdafiəsində vacib rol oynayan, respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılmış DOST mərkəzlərində elektron notariat kabinələri vasitəsilə vətəndaşlara daha asan və əlçatan xidmət göstərməyə imkan verir.

Qeyd olunub ki, notariusun vergi agenti qismində fəaliyyəti nəticəsində dövlət büdcəsinə hər il orta hesabla 40 milyon manat məbləğində vəsaitin köçürülməsi təmin edilir.

Vurğulanıb ki, ölkə başçısının və respublikamızın Birinci vitse-prezidentinin şəhid ailələrinə xüsusi qayğılı və həssas münasibət göstərilməsi ilə bağlı çağırışına dəstək olaraq notariuslar şəhid ailə üzvlərinə öz hesablarına xidmət göstərirlər.

Brifinqdə həmçinin, elektron xidmətlərin yeni inkişaf mərhələsi olan mobil tətbiqlər barədə məlumat verilib. Bildirilib ki, etibarnamələrin verilməsi, onların ləğv edilməsi, sənədlərin həqiqiliyinin yoxlanılması, yetkinlik yaşına çatmamış şəxslərin ölkədən getmək üçün valideynlərin razılıq ərizələrinin təsdiqi kimi xidmətlər göstərən və hazırda 200 minə yaxın istifadəçisi olan "Mobil notariat" xidmətlərinin dairəsi daim genişləndirilir.

Son ayda mobil tətbiqə yetkinlik yaşına çatmamış şəxslərin ümumvətəndaş pasportu almasına dair valideynlərin, yaşayış yeri üzrə qeydiyyata alınma ilə əlaqədar mülkiyyətçinin razılıqlarının rəsmiləşdirilməsi, açılmış vərəsəlik işlərinə dair məlumat əldə olunması, əks-əlaqə kimi yeni xidmətlər əlavə olunub. Həmçinin orada xidmətlərdən istifadə prosedurlarına dair videotəlimatlar yerləşdirilib.

Tədbirdə insan həyatında ən əlamətdar hadisələrin - vətəndaşlıq vəziyyəti aktlarının rəsmiləşdirilməsi sahəsində tətbiq olunan yeniliklərdən danışılıb.

Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinin rəisi Reyhanə Kərimova ölkə Prezidentinin rəhbərliyi ilə respublikamızın davamlı sosial-iqtisadi tərəqqisinin, əhalinin rifahının xeyli yüksəlməsinin demoqrafik inkişafa təsir etməklə, doğumun, nikahın və digər vətəndaşlıq vəziyyəti aktlarının operativ, müasir innovasiyalar tətbiq olunmaqla dövlət qeydiyyatının həyata keçirilməsini şərtləndirdiyini bildirib. Bununla əlaqədar 20 milyona qədər sənədin elektronlaşdırılması əsasında yaradılmış "Vətəndaşlıq vəziyyəti aktları" informasiya sisteminin fəaliyyəti nəticəsində əhali barədə məlumatların rəqəmsal idarəedilməsinin mümkün olduğunu vurğulayıb.

Qeyd edib ki, elektron xidmətlərin göstərilməsi və qlobal pandemiya şəraitində dövlət dəstək proqramlarının operativliyinin təmin edilməsində məlumatların elektronlaşdırılması xüsusi rol oynayıb.

Dövlət başçısının "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi barədə" Fərmanına əsasən yerli icra nümayəndəliklərinin nazirliyin informasiya sistemlərinə qoşulması, həmçinin bu qurumlarla birgə əhali arasında aparılan maarifləndirmə tədbirləri nəticəsində doğumun qeydiyyatında yüksək əhatəliyin, o cümlədən 9 minə yaxın uşağın doğum haqqında şəhadətnamə ilə təmin edilməsinə nail olunub.

Bu sahədə tətbiq olunan daha bir yenilik doğum və vəfat etmə faktlarının müraciət gözlənilmədən elektron qaydada qeydə alınması prosedurudur. Səhiyyə Nazirliyinin informasiya sistemi ilə inteqrasiya sayəsində əldə olunan elektron tibbi sənədlər əsasında artıq doğum və ölüm haqqında elektron şəhadətnamələrin verilməsi xidmətinin istifadəsinə başlanılıb.

Bundan əlavə, ailə münasibətlərinin qorunması istiqamətində Ədliyyə Nazirliyinin təşəbbüsü ilə nikahın pozulması üçün qeydiyyat şöbələrinə müraciət etmiş şəxslər üçün psixoloqların mediasiya xidmətləri təşkil edilir. Görülən tədbirlər nəticəsində söhbətlərə cəlb edilmiş həmin şəxslərin təxminən 40%-i boşanma fikrindən daşınıblar.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı, çoxpartiyalı siyasi sistemin möhkəmləndirilməsi istiqamətində aparılan genişmiqyaslı hərtərəfli islahatlardan söz açan Qeyri-hökumət təşkilatları ilə iş şöbəsinin rəhbəri Aslan Hacıyev isə qeyri-kommersiya qurumlarının fəaliyyətinə dəs-

tək sahəsində görülən işlər, tətbiq olunan elektron xidmətlər barədə məlumat verib.

Bildirilib ki, son 5 ildə vətəndaş cəmiyyəti institutlarına dəstək məqsədi ilə 900 milyon manatdan çox vəsaitin ayrılmasına dair on min layihə qeydiyyata alınıb.

Dövlət başçısının təşəbbüsü ilə qeyri-hökumət təşkilatlarının fəaliyyətini, habelə onların maliyyələşdirilməsi qaydasını tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində təsis sənədlərində edilmiş, habelə reyestrdə qeydə alınmış faktlarla bağlı sonrakı dəyişikliklərin, eləcə də layihələrin maliyyələşdirilməsi üzrə müqavilə və ya qərarların qeydiyyata alınması üçün artıq Ədliyyə Nazirliyinə bilavasitə müraciət edilməsi zərurəti aradan qaldırılıb. Bunun üçün "Fərdi elektron pəncərə" elektron məlumat sistemi vasitəsilə sənədləri elektron qaydada təqdim etmək kifayətdir.

Qeyd olunub ki, dövlət başçının rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatlar çərçivəsində siyasi sistemin təkmilləşdirilməsi və siyasi münasibətlərin sağlam zəmində qurulması istiqamətində önəmli addımlar atılır, çoxpartiyalı parlament formalaşıb, partiyalararası geniş dialoq aparılır. Bu prosesin davamı olaraq son dövrdə 9 yeni siyasiya partiyanın qeydiyyata alınması da siyasi plüralizmin və çoxpartiyalı sistemin inkişafının əyani təzahürü olub. Bununla qeydiyyata alınmış partiyaların ümumi sayı 58-ə çatıb.

Nazirlik tərəfindən göstərilən xidmətlərdən biri də sahibkarlıq sahəsində yoxlamaların vahid məlumat reyestrinin aparılmasıdır. Bu barədə danışan Dövlət reyestrləri idarəsinin rəhbəri Seymur İsmayılov ölkə başçısının təşəbbüsü ilə qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən yaradılmış məlumat reyestrinin sahibkarların hüquqlarının qorunmasında, o cümlədən əsassız yoxlamaların qarşısının alınmasında, bu sahədə şəfaflığın təmin edilməsində əhəmiyyətini vurğulayıb, yoxlamaların tam avtomatlaşdırılmış şəkildə sahibkar-məmur təması olmadan qeydiyyatının təşkil edildiyini diqqətə çatdırıb. Dövlət başçısının ölkəmizdə sahibkarlığın inkişafına yaradılmş əlverişli şəraitdən yararlanan və daim dövlət qayğısı ilə əhatə olunan sahibkarlar üçün, eləcə də yoxlayıcı orqanlar üçün reyestrin səmərəsi qeyd olunaraq ötən dövrdə yoxlamaların sayının 80%-dək azaldığı bildirilib.

Sonda sual-cavab sessiyası keçirilərək brifinq iştirakçılarını maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

# Ədliyyə Nazirliyində "Aliment və digər borclara dair qərarların icrası" mövzusunda sual-cavab sessiyası keçirilib

**Vətəndaşların ədliyyə orqanlarına əlçatanlığının təmin olunması, əhalinin ədliyyə fəaliyyəti barədə mütəmadi məlumatlandırılması məqsədilə həm vətəndaş cəmiyyəti nümayəndələrinin, həm də kütləvi informasiya vasitələrinin, eləcə də Ədliyyə Nazirliyinin rəsmi saytlarının və sosial şəbəkələrdə səhifələrinin imkanlarından geniş istifadə olunması işi davam etdirilir.**

Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətlərindən olan məhkəmə və digər orqanların qərarlarının icrası sahəsində işin düzgün və səmərəli təşkili daim diqqət mərkəzində saxlanılır. İnsan Hüquqları üzrə Avropa Məh-



kəməsinin qərarlarında vurğulandığı kimi, ədalət mühakiməsinin tərkib hissəsi, məhkəmə icraatının davamı və son mərhələsi olan bu fəaliyyət insan hüquq və azadlıqlarının

etibarlı təminində, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında müstəsna əhəmiyyət kəsb edir və əlbəttə, ictimaiyyətdə geniş maraq doğurur.

Məsələnin daim aktual olduğu nəzərə alınaraq nazirlik tərəfindən bu sahədə görülən işlər barədə vaxtaşırı məlumatlar dərc olunur, müxtəlif formatda görüşlər keçirilir, brifinqlər verilir, sual-cavab sessiyaları təşkil olunur. Növbəti sual-cavab sessiyası canlı yayımla dekabrın 16-da "Aliment və digər borclara dair qərarların icrası" mövzusunda təşkil edilib. Brifinqdə nazirliyin İcra baş idarəsinin analitik-nəzarət və kredit borcları şöbələrinin əməkdaşları tərəfindən ictimaiyyəti maraqlandıran məsələlər barədə məlumatlar verib, sualları cavablandırıblar.

Aliment borcları və uşaqların mənafeyinə toxunan digər icra sənədlərinin İcra xidmətinin fəaliyyətində ən həssas yeri tutması, qərarların icrası üçün mümkün olan bütün səylərin göstərildiyi bildirilib, bununla yanaşı, son illərdə aliment işlərində olan ciddi çoxalmanın icra qurumlarının iş yükünü və məsuliyyətini artırdığı qeyd edilib.

Bu qəbildən olan işlərin sayının 100 minə çatmasına, xeyrinə aliment ödənilməli olan uşaqların sayının 160 min olmasına, son il yarım ərzində bu işlər üzrə 130 milyon manat vəsaitin tələbkarlara ödətdirilməsinə diqqət cəlb edilib, bu işlərin icrasını illər ərzində təmin etməyin özünəməxsus çətinliklərinin olduğu bildirilib. Bu sahədə əsas çatışmazlıqların borcluların bir qisminin pandemiya şəraitində gəlirlərinin azalması, yaxud gəlirdən tam məhrum olmaları, bəzilərinin çağırışlara gəlməyərək axtarışda olması, qeydiyyatsız ünvanlarda yaşamaları, digərlərinin ölkə hüdudlarını tərk etməsi, müxtəlif xəstəliyə tutulması, yaxud məhkum edilməsi kimi halların olduğu qeyd edilib, icradan qərəzli yayınan borclulara qarşı isə prinsipial mövqe tutulduğu vurğulanıb.

Məsələ ilə bağlı aliment işləri üzrə tərəflərə, digər aidiyyəti şəxslərə üz tutularaq ailə qanunvericiliyindən irəli gələn valideynlik vəzifələrinə hörmətlə yanaşmaları, aliment ödəmələri ilə bağlı icra məmurlarını vaxtında və müntəzəm məlumatlandırmaları, icranın təmin edilməsinə lazımi kömək göstərmələri, uşaqların mənafeyi naminə ədalətli kompromisə getmələri, icradan qərəzli yayınanlar barədə barışmaz mövqe tutulması xahiş olunub.

Bundan əlavə, digər borc tələblərinə dair işlərdə kredit borcları ilə bağlı sənədlərin xüsusi yer tutmasından, onların sayının yüz minlərlə olmasından danışılıb. Əvvəlki dövrdən fərqli olaraq hazırda bu qəbildən işlərin icrasında icra tədbirlərinin həyata keçirilməsi müddətlərinin müasir texnologiyalar sayəsində qısaldıldığı, kredit təşkilatları və digər tələbkarların müraciətlərinin həlli üçün ardıcıl tədbirlərin görüldüyü bildirilib.

Həmçinin vurğulanıb ki, bu tip işlərin səmərəli icrasında mühüm əhəmiyyət kəsb edən hərrac prosesinin təkmilləşdirilməsi, eləcə də tam elektronlaşdırılması üçün əhatəli iş aparılır, hərracların elektron qaydada həyata keçirilməsinə yönələn qanunvericiliyə dəyişikliklər hazırlanır. Bu dəyişikliklər hərrac prosesini xeyli sürətləndirəcək, şəffaflığı təmin edəcək, bütün iştirakçılara bərabər və əlçatan imkanlar yaradacaq, subyektiv müdaxilə imkanları istisna olunacaq, izafi xərclərə qənaət ediləcək, bir çox təşkilati məsələlərin onlayn rejimdə həllinə imkan yaranacaq.

Sessiyada "Elektron icra" informasiya sisteminin icra xidməti əməkdaşları üçün təmin etdiyi üstünlüklərdən, icra qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində görülən işlərdən, o cümlədən "Azərbaycan Respublikası İcra Məcəlləsi"nin layihəsinin hazırlanmasından, bütün bunların yaxın gələcəkdə icra sahəsində işin daha operativ və səmərəli təşkilinə zəmin yaradacağından danışılıb, izləyicilərin icranın müxtəlif sahələrinə dair sualları yerindəcə cavablandırılıb.

# Ədliyyə Akademiyasında

## Azərbaycan və Vyetnam Ədliyyə akademiyaları arasında görüş






**Tarixi dostluq əlaqələrinə söykənən Azərbaycan-Vyetnam münasibətləri uğurla inkişaf edir, əlaqələrimiz həmçinin, hüquqi sahədə genişlənərək, nümayəndə heyətlərinin ikitərəfli səfərləri həyata keçirilib, faydalı təcrübə mübadiləsi aparılıb. İki dövlətin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Saziş və konkret tədbirləri nəzərdə tutan Əməkdaşlıq Proqramı imzalanıb.**

Həmin sənədlərin implementasiyası çərçivəsində Azərbaycan və Vyetnam Ədliyyə akademiyaları arasında "Məhkəmə üzvlərinin təlimində informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi ilə bağlı bilik və təcrübə mübadiləsi" mövzusunda videokonfrans formatında görüş keçirilib.

Tədbirdə Vyetnam Ədliyyə Akademiyasının direktor müavini Nguen Min Han, müxtəlif kafedra və fakültələrin ekspert və müəllim heyəti, ölkəmizin Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov, Ədliyyə Nazirliyinin və Ali Məhkəmənin məsul şəxsləri, hakimlər iştirak ediblər.

Nazirliyin Beynəlxalq əməkdaşlıq idarəsinin rəis müavini Teymur Məlik-Aslanov ölkələrimiz arasında əlaqələrin müxtəlif, o cümlədən hüquqi sahədə uğurla həyata keçirildiyini, iki dövlətin Ədliyyə nazirlikləri arasında imzalanmış sənədlərin qarşılıqlı fəaliyyətin inkişafına təkan verdiyini qeyd edib, tədbirin əhəmiyyətini vurğulayıb.

Görüşdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sahəsində həyata keçirilən islahatlar və tətbiq olunan yeniliklər barədə məlumat verilib, Ədliyyə Akademiyasının fəaliyyətinə, hakimlərin tədrisi və digər sahələrdə müasir texnologiyaların tətbiqinə, o cümlədən Elektron Tədris Platformasının əhəmiyyətinə dair təqdimat nümayiş etdirilib.

Azərbaycanla ədliyyə sahəsində səmərəli əməkdaşlıqdan məmnunluğunu ifadə edən Nguen Min Han keçirilən videokonfransı böyük maraqla qarşılayaraq İKT sahəsində ölkəmizin nailiyyətlərindən təsirləndiklərini vurğulayıb, ədliyyə sahəsində tətbiq olunan innovasiyaların, o cümlədən elektron məhkəmə, elektron icra, elektron notariat sistemlərinin tətbiqi sahəsində nailiyyətlərin dərindən öyrənilməsi üçün respublikamıza səfərlərin, həmçinin videokonfransların davamlı təşkil edilməsinin zəruriliyini qeyd edib.

Tədbirdə hər iki ölkənin Ədliyyə akademiyalarında keçirilən tədris tədbirləri, bu zaman informasiya texnologiyalarının tətbiqi ilə bağlı faydalı fikir mübadiləsi aparılıb, ölkəmizin hüquq peşəsinin tədrisi prosesində innovativ təcrübəsinə maraq göstərilib, tərəfləri maraqlandıran suallar ətrafında müzakirələr keçirilib.

## ”Mübahisələrin alternativ həlli və ixtisaslaşmış məhkəmələrə əlavə dəstək” layihəsi çərçivəsində seminarlar

**Ədliyyə Nazirliyinin və Avropa İttifaqının birgə həyata keçirdiyi "Mübahisələrin alternativ həlli və ixtisaslaşmış məhkəmələrə əlavə dəstək" layihəsi çərçivəsində 15-16 dekabr tarixlərində "Hyatt Regency" otelində seminarlar keçirilib.**

Ədliyyə Akademiyasının və Avropa İttifaqının birgə təşkilatçılığı ilə keçirilən təlimlərdə 40-dan çox dinləyici, o cümlədən kommersiya və inzibati məhkəmələrin hakimləri, ədliyyə və məhkəmə aparatı işçiləri, vəkillər iştirak ediblər.

Tədbirdə qeyd olunub ki, layihənin keçirilməsində məqsəd məhkəmələrin institusional və hüquqi potensialının artırılması, məhkəmə icraatının və qərarlarının qabaqcıl beynəlxalq təcrübəyə uyğun keyfiyyətinin, hakimlərin peşəkarlığının yüksəldilməsi, mediasiya və arbitraj institutlarının tətbiqinin genişləndirilməsidir.



Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov layihə çərçivəsində hakimlər, hakimliyə namizədlər, vəkillər və məhkəmə aparatı işçiləri üçün keçirilmiş silsilə təlimlər barədə məlumat verib, onların əhəmiyyətindən və müsbət nəticələrindən bəhs edib.

Təlimlərdə iştirak edən yerli və beynəlxalq ekspertlər tərəfindən layihə çərçivəsində kommersiya və inzibati icraat zamanı üzləşilən problemlərin təhlili ilə bağlı görülən işlər, kommersiya işlərinə baxılma müddətləri, elektron sübutların istifadəsi və idarə edilməsi, əsas məhkəmə baxışına hazırlıq üçün yazılı icraatlardan istifadə edilməsi, həmçinin hərəkətsizlik patologiyası və ya məhkəmə icraatının həddindən artıq davam etməsinin qarşısının alınması və digər mövzular dinləyicilərin diqqətinə çatdırılıb, inzibati ədalət mühakiməsi sahəsində qabaqcıl təcrübələrdən bəhs olunub.

Eyni zamanda, inzibati ədalət mühakiməsi sahəsində təkrar məhkəmə çəkişmələrinin azaldılması, məhkəmələr və inzibati orqanlar arasında əməkdaşlıq yolları, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi və məhkəmə qərarlarının daha yaxşı icrası ilə bağlı müzakirələr aparılıb, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

## Vəkillər üçün ”Elektron məhkəmə” informasiya sistemindən səmərəli istifadə” mövzusunda distant təlim

**Dekabrın 27-də vəkillər üçün "Elektron məhkəmə" informasiya sistemindən səmərəli istifadə" mövzusunda distant təlim keçirilib.**

Ədliyyə Nazirliyi tərəfindən Vəkillər Kollegiyası ilə birgə 01.11.2021-ci il tarixdə keçirilmiş videokonfrans zamanı vəkillərin bu sahədə bilik və bacarıqlarının artırılması məqsədilə təlimlərin təşkili ilə bağlı gəlinmiş razılığa əsasən keçirilən tədbirdə təlimçilər tərəfindən "şəxsi elektron kabinet" vasitəsilə aparılan bir sıra əməliyyatlar əyani nümayiş etdirilib. Təqdimat zamanı iddia ərizələri və şikayətlərin elektron qaydada göndərilməsi, dövlət rüsumunun ödənilməsi formaları və rüsumun yoxlanıl-

ması, xarici hüquqi və fiziki şəxslər üçün dövlət rüsumunun ödənilməsi imkanı dinləyicilərin diqqətinə çatdırılıb.

Təlimdə vəkillərin e-məhkəmə sistemindən istifadə zamanı rastlaşdıqları çətinliklərə dair geniş fikir mübadiləsi aparılıb, onların suallarına aydınlıq gətirilib.

Bildirilib ki, Akademiya






tərəfindən "Elektron məhkəmə" informasiya sisteminin funksional imkanları barədə vəkil bürolarından əlaqələndirici şəxslərə ixtisaslaşdırılmış təlimlərin keçirilməsi, həmçinin vəkilliyə namizədlər üçün təşkil olunan təlimlərdə bu mövzunun tədrisi planlaşdırılır.

# Vəkillər Kollegiyası Ədliyyə Nazirliyi ilə birgə növbəti hüquqi yardım aksiyası keçirib

**Prezident İlham Əliyevin həyata keçirdiyi müasir çağırışlara uyğun islahatlar ölkə həyatının bütün sahələrində olduğu kimi, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxslərin saxlanıldığı penitensiar sistemdə də aparılır, cəza siyasəti humanistləşdirilir, məhkumların saxlanma şəraiti müasirləşdirilir, bu sahədə səmərəli ictimai iştirakçılıq tətbiq olunur.**

Eyni zamanda, azadlıqdan məhrum edilmiş şəxslərin, o cümlədən cəmiyyətin həssas təbəqəsi olan qadın və yeniyetmə məhkumların hüquqlarının təmin olunması, onların sosial adaptasiyası ilə bağlı çoxşaxəli, mühüm tərbiyəvi əhəmiyyət kəsb edən, islahyönümlü tədbirlər təşkil olunur, məhkumlara ödənişsiz hüquqi yardımlar göstərilir.



Bununla bağlı Ədliyyə Nazirliyi tərəfindən Vəkillər Kollegiyası, vətəndaş cəmiyyəti institutları, ali təhsil müəssisələri və tələbə-həmkar təşkilatları ilə birgə ardıcıl tədbirlər davam etdirilir.

Həmin tədbirlər çərçivəsində Vəkillər Kollegiyası tərəfindən 28 dekabr - Vəkil Günü peşə bayramı münasibətilə Ədliyyə Nazirliyi ilə birgə növbəti hüquqi yardım aksiyası keçirilib.

Vəkillər nazirliyin Penitensiar Xidmətinin 4 saylı cəzaçəkmə və Tərbiyə müəssisələrində qadın və yetkinlik yaşına çatmayan məhkumlara pulsuz hüquqi yardım göstərib, anaları ilə birlikdə qalan balacaları yeni il hədiyyələri ilə sevindiriblər.

Gömrük Akademiyasının könüllüləri olan dördüncü kurs tələbələrinin qoşulduğu aksiya zamanı məhkumlara 70-ə yaxın məhkəmə və digər orqanlarda hüquqlarının müdafiəsi ilə bağlı hüquqi yardım göstərilib, məsləhətlər verilib.

## "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 114; 2003, N 6, maddə 277; 2004, N 8, maddə 598, N 11, maddə 901, N 12, maddə 973; 2007, N 1, maddə 3, N 6, maddə 562, N 11, maddə 1053; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 952; 2010, N 2, maddə 75, N 7, maddə 591; 2011, N 6, maddə 482, N 7, maddə 618; 2012, N 11, maddə 1052; 2013, N 6, maddə 613, N 7, maddə 787, N 12, maddə 1494; 2015, N 12, maddə 1434; 2016, N 12, maddə 2050; 2017, N 2, maddə 156, N 6, maddə 1056, N 8, maddə 1511; 2018, N 2, maddə 151, N 5, maddələr 853, 867, N 7 (I kitab), maddə 1424, N 8, maddə 1674, N 12 (I kitab), maddə 2528; 2019, N 1, maddə 21, N 2, maddə 203, N 6, maddə 999; 2020, N 7, maddələr 828, 856; 2021, N 4, maddə 312, N 8, maddə 898) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 53.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"53.2. Vergi ödəyicisinin vergi borcuna görə siyahıya alınmış əmlakı istisna olmaqla, borclunun əmlakı qanunla nəzərdə tutulmuş qaydada əmtəə birjaları nəzdində yaradılan və bu cür əməliyyatlar aparmaq hüququna malik olan ixtisaslaşdırılmış müəssisələr tərəfindən hərrac yolu ilə satılır.

Vergi ödəyicisinin vergi borcuna görə siyahıya alınmış əmlakının hərrac yolu ilə satılması vergi orqanının sifarişi əsasında Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) vasitəsilə həyata keçirilir.

Dəyəri 5000 manatdan artıq olmayan daşınar əmlak icra xidmətinin (vergi borcuna görə siyahıya alınmış daşınar əmlaka münasibətdə vergi orqanının) müəyyən etdiyi ticarət şəbəkələrində müvafiq müqavilə əsasında satıla bilər. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 90-cı maddəsinə əsasən vergi ödəyicisinin siyahıya alınmış əmlakının vergi orqanının müəyyən etdiyi ticarət şəbəkələrində (o cümlədən, satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) satışının təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.";

1.2. 61-ci maddə üzrə:

1.2.1. 61.1-ci maddədə "Borclunun" sözü "Vergi borcuna görə siyahıya alınmış əmlak istisna olmaqla, borclunun" sözləri ilə əvəz edilsin;

1.2.2. 61.6-cı maddə ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*
*N412-VIQD*

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 8; 2005, N 1, maddə 1, N 8, maddə 700; 2006, N 2, maddə 70; 2008, N 2, maddə 49; 2010, N 4, maddə 265; 2012, N 1, maddə 2, N 7, maddə 651; 2013, N 12, maddə 1479; 2014, N 2, maddə 78, N 7, maddə 769, N 11, maddə 1356, N 12, maddə 1526; 2015, N 11, maddə 1259; 2016, N 4, maddə 644, N 10, maddə 1606; 2017, N 5, maddələr 709, 724, N 10, maddə 1775; 2018, N 12 (I kitab), maddələr 2471, 2531; 2019, N 1, maddələr 16, 21, N 2, maddə 176, N 6, maddə 999, N 7, maddə 1203; 2020, N 6, maddə 675; N 8, maddə 1017, N 11, maddələr 1323, 1335) aşağıdakı məzmunda 13.3-1-ci maddə əlavə edilsin:

"13.3-1. Kommersiya qurumları və publik hüquqi şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alındıqda və ya təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyi dövlət qeydiyyatına alındığı gün qeydiyyat sənədləri (dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış, nizamnamə və ya nizamnaməyə dəyişiklik) hüquqi şəxsin elektron kabinetinə göndərilir.".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*
*N413-VIQD*

## "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 10, maddə 569; 2001, N 12, maddə 736; 2005, N 8, maddə 692; 2006, N 11, maddə 928; 2007, N 6, maddə 560; 2008, N 8, maddə 695, N 11, maddə 960;

2009, N 12, maddə 966; 2013, N 4, maddə 357; 2014, N 1, maddə 8, N 4, maddə 337; 2015, N 2, maddə 75, N 3, maddə 251; 2020, N 7, maddə 827; 2021, N 8, maddə 897) aşağıdakı dəyişikliklər edilsin:

1.1. preambulada "qaydalarını və şərtlərini müəyyən edir" sözləri "sahəsində münasibətləri tənzimləyir" sözləri ilə əvəz edilsin;

1.2. 1-ci maddədən "Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında," sözləri çıxarılsın və həmin maddədə "Qanunları və digər qanunları ilə, müvafiq icra hakimiyyəti orqanlarının bu Qanuna uyğun olaraq qəbul etdikləri" sözləri "Azərbaycan Respublikasının Qanunu, habelə digər" sözləri ilə əvəz edilsin;

1.3. 2 - 4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 2.** Əsas anlayışlar

2.1. Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. dövlət icbari şəxsi sığorta - sığortaolunanların həyat və sağlamlığının bu Qanunda nəzərdə tutulmuş qaydada icbari formada sığorta olunmasına yönəldilmiş münasibətlər sistemi;

2.1.2. sığortaçı - bu Qanunla müəyyən edilmiş qaydada dövlət icbari şəxsi sığorta üzrə fəaliyyəti həyata keçirən və sığorta vəsaitlərini idarə edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

2.1.3. sığortaolunan - barəsində sığorta fəaliyyəti həyata keçirilən hakimlər, prokurorluq işçiləri (hərbi prokurorluq orqanlarının işçiləri istisna olmaqla), müstəntiqlər, ədliyyə, miqrasiya orqanlarında qulluq keçən, təhqiqat aparan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən şəxslər, habelə fövqəladə halların nəticələrinin aradan qaldırılmasını, ictimai qaydanın mühafizəsini təmin edən, gömrük işini təşkil edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçiləri;

2.1.4. sığortalı - sığortaolunan üçün sığorta haqqı ödəyən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), Azərbaycan Respublikasının Baş Prokurorluğu və Azərbaycan Respublikasının məhkəmələri;

2.1.5. sığorta ödənişi almaq hüququ olan şəxs - bu Qanunla müəyyən edilmiş qaydada sığorta ödənişini almaq hüququ olan sığortaolunan və ya onun vərəsəsi;

2.1.6. sığorta hadisəsi - sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişinin ödənilməsi üçün əsas olan bu Qanunun 5-ci maddəsi ilə müəyyən edilən hal;

2.1.7. sığorta haqqı - bu Qanunla nəzərdə tutulmuş qaydada və məbləğdə sığortalı tərəfindən hər bir sığortaolunan üzrə hər il üçün sığortaçıya ödənilməli olan pul məbləği;

2.1.8. sığorta vəsaiti - bu Qanunun 8-1.1-ci maddəsində nəzərdə tutulan mənbələr hesabına formalaşan vəsait;

2.1.9. sığorta ödənişi - sığorta hadisəsi baş verdikdə sığorta ödənişi almaq hüququ olan şəxsə sığortaçı tərəfindən ödənilən birdəfəlik pul vəsaiti;

2.1.10. sığorta ehtiyatı - sığorta ödənişlərinin davamlılığının təmin edilməsi məqsədilə sığorta haqları üzrə illik daxilolmaların proqnozunun 5 faizədək hissəsində hesablanan vəsaitdir.

**Maddə 3.** Dövlət icbari şəxsi sığortanın prinsipləri

3.1. Dövlət icbari şəxsi sığortanın əsas prinsipləri aşağıdakılardır:

3.1.1. dövlət icbari şəxsi sığortanın məcburiliyi;

3.1.2. dövlət icbari şəxsi sığortanın subyektlərinin (sığortaçının, sığortalının, sığortaolunanın) hüquq bərabərliyi.

**Maddə 4.** Sığorta məbləğinin və sığorta haqqının miqdarı

4.1. Sığortaolunan 5 illik əməkhaqqı məbləğində sığorta edilir.

4.2. Sığorta haqqı bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulan sığorta məbləğinin 1 faizi miqdarında müəyyən edilir.

4.3. Sığortalının qərarı ilə sığorta haqqının miqdarı artırıla bilər.";

1.4. Aşağıdakı məzmunda 4-1 - 4-4-cü maddələr əlavə edilsin:

**"Maddə 4-1.** Sığortaolunanın hüquq və vəzifələri

4-1.1. Sığortaolunanın aşağıdakı hüquqları vardır:

4-1.1.1. dövlət icbari şəxsi sığorta etdirməyi sığortalıdan

tələb etmək;

4-1.1.2. sığortaçıdan və sığortalıdan dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrinin izah edilməsini tələb etmək;

4-1.1.3. sığorta ödənişinin bu Qanunla müəyyən olunmuş qaydada və müddətdə verilməsini sığortaçıdan tələb etmək;

4-1.1.4. yazılı müraciət əsasında hesablanmış və ödənilmiş sığorta haqqının məbləği barədə sığortaçıdan və ya sığortalıdan məlumat almaq.

4-1.2. Sığortaolunanın aşağıdakı vəzifələri vardır:

4-1.2.1. sığortaçı tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə məlumatların əldə edilməsi mümkün olmadığı hallarda sığorta hadisəsinin baş verdiyini təsdiq edən sənədləri və məlumatları sığortaçıya bu Qanunla müəyyən olunmuş qaydada tam və düzgün təqdim etmək;

4-1.2.2. fərdi məlumatları dəyişildikdə həmin dəyişikliklər barədə məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda bu barədə 5 iş günü müddətində sığortalıya yazılı məlumat vermək.

4-1.3. Bu Qanunun 4-1.1.2-ci, 4-1.1.3-cü və 4-1.2.1-ci maddələri sığortaolunanın sığorta ödənişi almaq hüququ olan vərəsələrinə də şamil edilir.

**Maddə 4-2.** Sığortaçının hüquq və vəzifələri

4-2.1. Sığortaçının aşağıdakı hüquqları vardır:

4-2.1.1. sığortalıdan sığorta haqqını və rüblük hesabatları almaq;

4-2.1.2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə məlumatların əldə edilməsi mümkün olmadığı hallarda sığorta ödənişi almaq hüququ olan şəxsdən sığorta ödənişinin ödənilməsi, habelə uçot məlumatlarında dəyişikliklərin edilməsi üçün tələb olunan sənədləri və məlumatları tələb etmək;

4-2.1.3. sığorta hadisəsinin müəyyən edilməsi ilə bağlı, sığortalıdan və aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumat və ya sığortaolunanın həmin sığortalı üzrə sığortaolunan hesab olunmasına dair arayış almaq (o cümlədən elektron qaydada);

4-2.1.4. sığortalı tərəfindən bu Qanunun tələblərinə əməl edilməsinin təhlilini aparmaq və nəticəsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat vermək;

4-2.1.5. bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

4-2.2. Sığortaçının aşağıdakı vəzifələri vardır:

4-2.2.1. sığorta ödənişi almaq hüququ olan şəxsə və sığortalıya dövlət icbari şəxsi sığorta ilə bağlı hüquq və vəzifələrini izah etmək;

4-2.2.2. sığorta ödənişinin bu Qanunla müəyyən olunmuş qaydada və müddətdə ödənilməsini təmin etmək;

4-2.2.3. hər bir sığortalıya və bu Qanunun 9.1-ci maddəsinə əsasən dövlət icbari şəxsi sığortaya nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) sığorta ödənişlərinin icrasına dair məlumat təqdim etmək;

4-2.2.4. sığortalının təqdim etdiyi məlumatlar əsasında sığortalıların və sığortaolunanların uçotunu aparmaq;

4-2.2.5. sığortaolunanın yazılı müraciətinə əsasən hesablanmış və ödənilmiş sığorta haqqının məbləği barədə uçot məlumatlarını təqdim etmək;

4-2.2.6. bu Qanunun 8-1-ci maddəsinə uyğun olaraq sığorta vəsaitlərini idarə etmək;

4-2.2.7. sığortalı tərəfindən sığorta haqlarının sığortaçıya ödənilməsinə nəzarət etmək;

4-2.2.8. bu Qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**Maddə 4-3.** Sığortalının hüquq və vəzifələri

4-3.1. Sığortalının aşağıdakı hüquqları vardır:

4-3.1.1. özünün və sığortaolunanın qanuni mənafelərini müdafiə etmək;

4-3.1.2. sığortaçı və sığortaolunandan bu Qanunla müəyyən edilmiş vəzifələrinə əməl edilməsini tələb etmək;

4-3.1.3. sığortaçıdan dövlət icbari şəxsi sığorta ilə bağlı

hüquq və vəzifələrinin izah edilməsini tələb etmək;

4-3.1.4. sığorta ödənişlərinə dair sığortaçıdan məlumat almaq;

4-3.1.5. bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

4-3.2. Sığortalının aşağıdakı vəzifələri vardır:

4-3.2.1. sığortaolunanları dövlət icbari şəxsi sığorta etdirmək;

4-3.2.2. bu Qanunla müəyyən edilmiş qaydada, məbləğdə və müddətdə sığorta haqqını tam həcmdə sığortaçıya ödəmək;

4-3.2.3. sığortaolunanlar və özü barədə məlumatları bu Qanunun 4-4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq sığortaçıya təqdim etmək;

4-3.2.4. sığorta ödənişinin alınması üçün sənədlərin rəsmiləşdirilməsində və sığorta ödənişlərinin alınmasında sığorta ödənişi almaq hüququ olan şəxsə kömək etmək;

4-3.2.5. sığorta haqlarının uçotunu aparmaq və hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada və formada hesabat vermək;

4-3.2.6. bu Qanunla müəyyən olunmuş digər vəzifələri yerinə yetirmək.

**Maddə 4-4.** Sığortaolunanların və sığortalıların uçotu və sığorta haqlarının hesablanması, ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş sığorta haqlarının qaytarılması qaydası

Dövlət icbari şəxsi sığortası məqsədilə sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş sığorta haqlarının qaytarılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.5. 5-ci maddə üzrə:

1.5.1. birinci hissədə "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin xidmət" sözləri "Sığortaolunanların xidməti" sözləri ilə əvəz edilsin və həmin hissəyə "alması" sözündən sonra "və (və ya) əlilliyin müəyyən edilməsi" sözləri əlavə edilsin;

1.5.2. ikinci hissəyə "baş verdikdə" sözlərindən sonra "bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulan" sözləri əlavə edilsin, həmin hissənin "a" və "b" bəndlərində "sığorta olunan" sözləri "sığortaolunan" sözü ilə əvəz edilsin, "ç" bəndində "sığorta olunan" sözləri "sığortaolunan" sözü ilə əvəz olunsun, üçüncü abzas dördüncü abzas hesab edilsin və aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"az ağır xəsarət (yaralanma, travma, kontuziya) - 15 faiz;";

1.5.3. aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Ağır, az ağır və yüngül xəsarət növləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş siyahıya uyğun olaraq müəyyən edilir.".

1.6. 6 - 8-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 6.** Dövlət icbari şəxsi sığortanın aparılması qaydası

6.1. Sığortaolunanların dövlət icbari şəxsi sığortası hər il dövlət büdcəsinin vəsaiti hesabına aparılır.

6.2. Sığortalılar sığortaolunanların dövlət icbari şəxsi sığortasını təmin etmək üçün sığorta haqlarının məbləğini hər il rüblər üzrə bu Qanunun 4-4-cü maddəsində nəzərdə tutulmuş qaydada sığortaçıya ödəyir.

6.3. Sığorta haqqı sığortalı tərəfindən hər il üçün hər bir sığortaolunana görə ödənilir.

6.4. Sığortaolunanlar müvafiq olaraq qulluğa qəbul və ya vəzifəyə təyin olunduqları tarixdən bu Qanunla müəyyən edilmiş qaydada sığortalı tərəfindən sığorta olunurlar.

**Maddə 7.** Sığorta ödənişinin verilməsi

7.1. Sığortaçı sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişini sığorta hadisəsi ilə bağlı məlumatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sisteminə daxil olduğu, bu mümkün olmadıqda isə sığorta ödənişi almaq hüququ olan şəxsin müraciətinin

daxil olduğu gündən 10 iş günü müddətində verir. Sığorta ödənişinin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

7.2. Sığortalı və digər aidiyyəti dövlət orqanları (qurumları) sığorta ödənişlərinin alınması üçün sığorta ödənişi almaq hüququ olan şəxsə kömək etməlidirlər.

7.3. Bu Qanunun 4-3.2.5-ci maddəsinə uyğun olaraq sığortalı tərəfindən sığortaçıya hesabat təqdim olunmadığı hallarda sığorta ödənişi sığortalının sığortaolunanın həmin sığortalı üzrə sığortaolunan hesab olunmasına dair arayışına əsasən ödənilir və bu barədə məlumatlar sığortalının növbəti rübdə təqdim etdiyi hesabatda əks olunur.

7.4. Sığorta ödənişi verilmiş sığorta hadisəsi ilə bağlı yeni sığorta hadisəsi baş verdikdə müvafiq sığorta ödənişi əvvəl ödənilmiş məbləğ nəzərə alınmaqla ödənilir.

**Maddə 8.** Sığorta ödənişinin verilməsindən imtina

8.1. Sığorta ödənişi almaq hüququ olan şəxsə sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edilir:

8.1.1. sığortaolunanın sığorta hadisəsi ilə birbaşa bağlı olan qəsdən cinayət törətdiyi barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;

8.1.2. sığortaolunan bu Qanunun 7.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq sığorta ödənişinin alınması üçün tələb olunan sənədləri və məlumatları təqdim etmədikdə, yaxud təqdim edilmiş sənədlərin və məlumatların tam və ya düzgün olmadığı müəyyən edildikdə;

8.1.3. baş vermiş hadisə bu Qanunla müəyyən edilmiş sığorta hadisəsi hesab edilmədikdə;

8.1.4. sığorta hadisəsi sığortaolunanın bilavasitə alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə etməsi nəticəsində baş verdikdə;

8.1.5. sığortaolunan özünə qəsd etdikdə və həmin hal məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq olunduqda.

8.2. Sığorta ödənişinin verilməsindən bu Qanunun 8.1.2-ci maddəsində nəzərdə tutulmuş hala görə imtina edildikdə sığorta ödənişi almaq hüququ olan şəxs imtinaya səbəb olan hal aradan qaldırıldıqdan sonra sığorta ödənişinin alınması üçün təkrar müraciət etmək hüququna malikdir.";

1.7. aşağıdakı məzmunda 8-1 və 8-2-ci maddələr əlavə edilsin:

"**Maddə 8-1.** Sığorta vəsaitləri

8-1.1. Sığorta vəsaitləri aşağıdakı mənbələr hesabına formalaşır:

8-1.1.1. bu Qanunla müəyyən olunmuş qaydada və məbləğdə ödənilən sığorta haqları;

8-1.1.2. kreditlər;

8-1.1.3. sığorta ehtiyatının təhlükəsizlik göstəriciləri üzrə meyarları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən banklarda depozitə yerləşdirilməsindən əldə edilən gəlirlər;

8-1.1.4. qanunla qadağan edilməyən digər mənbələr.

8-1.2. Sığorta vəsaitləri aşağıdakı istiqamətlərdə istifadə olunur:

8-1.2.1. dövlət icbari şəxsi sığorta ödənişlərinin verilməsinə;

8-1.2.2. sığorta ehtiyatının yaradılmasına;

8-1.2.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hallarda müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə;

8-1.2.4. idarəetmə xərclərinə;

8-1.2.5. qanunla müəyyən edilən digər istiqamətlərə.

8-1.3. İdarəetmə xərcləri sığorta haqqının 5 faizədək miqdarında müəyyən edilir və bu vəsaitin xərclənməsi müvafiq qaydada təsdiq olunmuş xərclər smetasına uyğun olaraq həyata keçirilir.

8-1.4. Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

8-1.5. Sığorta ehtiyatı sığorta haqlarının illik proqnoz həcminə bərabər olduqda, sığorta

ehtiyatının artırılması dayandırılır, onun depozitə yerləşdirilməsindən əldə edilən gəlir isə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilir.

8-1.6. Sığorta ödənişi almaq hüququ olan şəxslərin sayında kəskin artım nəticəsində sığorta ödənişləri üzrə illik gözlənilən xərclər sığorta haqları üzrə illik gözlənilən daxilolmadan artıq olduqda, gözlənilən sığorta ödənişləri üzrə xərclər və sığorta haqları üzrə daxilolmalar arasındakı kəsir sığorta ehtiyatı hesabına maliyyələşdirilir.

8-1.7. Cari ilin sonunda sığorta vəsaitinin istifadə olunmamış qalığı, sığorta ehtiyatı və onun depozitə yerləşdirilməsindən əldə edilmiş gəlir növbəti il üçün xərclərin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 8-2.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən ayırmalar

Bu Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən toplanan vəsaitin 43 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür.";

1.8. 9-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 9.** Nəzarət və bu Qanunun pozulmasına görə məsuliyyət

9.1. Dövlət icbari şəxsi sığortanın həyata keçirilməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) nəzarət edir.

9.2. Sığortaçı dövlət icbari şəxsi sığorta sahəsində görülmüş işlərə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) hesabat verir.

9.3. Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*
*N419-VIQD*

## "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 419-VIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublika-sının 2021-ci il 3 dekabr tarixli 419-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respub-

likası Qanununun 2.1.2-ci, 2.1.3-cü, 2.1.4-cü, 4-1.2.1-ci, 4-1.2.2-ci, 4-2.1.2-ci, 4-2.1.4-cü, 4-2.2.3-cü, 4-3.2.5-ci, 4 4-cü maddələrində, 5-ci maddəsinin üçüncü hissəsində, 7.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 8-1.1.3-cü, 8-1.2.3-cü, 8-1.4-cü maddələrində, 8-2-ci maddəsinin adında və mətnində (hər iki halda), 9.1-ci və 9.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 8-1.2.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 4-3.2.5-ci, 4-4-cü maddələrində, 5-ci maddəsinin üçüncü hissəsində, 7.1-ci maddəsinin ikinci cümləsində, 8-1.1.3-cü və 8-1.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 2.1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur;

1.5. həmin Qanunun 2.1.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 4-1.2.1-ci, 4-1.2.2-ci, 4-2.1.2-ci, 4-2.1.4-cü, 4-2.2.3-cü maddələrində, 7.1-ci maddəsinin birinci cümləsində, 8-2-ci maddəsinin adında və mətnində (hər iki halda), 9.1-ci və 9.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 2.1.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 419-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*
*N 1545*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Res-

publikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240,2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163 N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 23, 44, N 3, maddələr 374, 389, N 4, maddələr 579, 581, 587, 595, N 5, maddələr 791, 800, 803, 804, 813, N 6, maddələr 992, 998, 1007, N 7, maddə 1193, N 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, N 11, maddələr 1682, 1686, 1696, N 12, maddələr 1883, 1900; 2020, N 3, maddə 222, N 5, maddələr 505, 515, 519, N 6, maddələr 670, 672, 681, N 7, maddələr 838, 841, 846, 854, N 8, maddələr 1008, 1011, N 11, maddələr 1332, 1333, 1336, N 12 (I kitab), maddələr 1432, 1440; 2021, N 4, maddə 306, N 5, maddə 428, N 6 (I kitab), maddələr 535, 541, 546, 560, N 7, maddələr 701, 705, 711, N 8, maddə 894; Azərbaycan Respublikasının 2021-ci il 5 noyabr tarixli 397-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 43.1-ci maddəyə "428.7," rəqəmlərindən sonra "428.9," rəqəmləri və "428.10," rəqəmlərindən sonra "429.0.5," rəqəmləri əlavə edilsin;

1.2. 398-ci maddənin "Qeyd" hissəsinin 1-ci bəndindən "401.1, 401.2," rəqəmləri çıxarılsın;

1.3. 401-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 401.** Qumar oyunları

401.1. Azərbaycan Respublikasının ərazisindən qumar oyunlarında iştirak üçün imkanların yaradılması, o cümlədən qumar oyunlarının oynanıldığı virtual mühitə çıxışın təmin edilməsinə görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər qırx min manat məbləğində cərimə edilir.

401.2. Qumar oyunlarında iştirak üçün biletlərin (və ya biletə bərabər tutulan digər iştirak hüququnun) satışının təşkili və (və ya) satışına görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər qırx min manat məbləğində cərimə edilir.

401.3. Qumar oyunlarında iştirak üçün mərclərin qəbul edilməsi, pul vəsaitlərinin, əşyaların və qeyri-maddi əmlak nemətlərinin qəbulu, köçürmələrin aparılması, uduşların ödənilməsi, uduşların, mükafatların və ya digər gəlirin verilməsi, bunların təşkili və bunlarla əlaqədar xidmətlərin göstərilməsinə görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər qırx min manat məbləğində cərimə edilir.

401.4. Qumar oyunlarının təşkili, keçirilməsi, iştirak üçün biletlərin (və ya biletə bərabər tutulan digər iştirak hüququnun) satışı ilə, qumar oyunlarında iştirakla bağlı müştərinin ödəniş tapşırıqlarının və ya bank hesabı üzrə digər əməliyyatlarının bank əməliyyatları aparan şəxslər tərəfindən icrasına (aparılmasına) görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər qırx min manat məbləğində cərimə edilir.

Qeyd:

1. Bu Məcəllədə "qumar oyunları" dedikdə pul vəsaitləri, maddi və sair nemət (uduş) barəsində oynanılan və uduşu qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan oyunlar (o cümlədən mərclər) başa düşülür.

2. "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada keçirilən lotereyalara və "Bədən tərbiyəsi və idman

haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada keçirilən idman mərc oyunlarına bu maddənin qüvvəsi şamil edilmir.

3. Qumar oyunlarının təşkili və ya keçirilməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244-1.1-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur.";

1.4. 428.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"428.9. Qumar oyunlarının və ya belə oyunların təşkilatçısının (operatorunun) və satıcısının, o cümlədən keçirilməsi qadağan edilmiş və ya keçirilmə hüququ əldə edilməmiş stimullaşdırıcı lotereyaların və qeydiyyata alınmamış digər lotereyaların reklamına görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər qırx min manat məbləğində cərimə edilir.";

1.5. 429-cu maddə üzrə:

1.5.1. adına və 429.0-cı maddəyə "Lotereyalar" sözündən sonra "və idman mərc oyunları" sözləri əlavə edilsin;

1.5.2. 429.0.1-ci maddə ləğv edilsin;

1.5.3. 429.0.2-ci maddədə "yaratdığı qurumun" sözləri "müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

1.5.4. aşağıdakı məzmunda 429.0.4-cü və 429.0.5-ci maddələr əlavə edilsin:

"429.0.4. İdman mərc oyunlarının təşkili və keçirilməsi sahəsində idman mərc oyunlarının operatoru tərəfindən "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsinə görə -

fiziki şəxslər səkkiz yüz manatdan doqquz yüz manatadək məbləğdə, vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan doqquz min manatadək məbləğdə cərimə edilir.

429.0.5. İdman mərc oyunlarının satıcısı tərəfindən yetkinlik yaşına çatmayanların idman mərc oyunlarında birbaşa və ya dolayı iştirakına yol verilməsinə görə -

min manat məbləğində cərimə edilir.";

1.5.5. "Qeyd" hissəsi ləğv edilsin;

1.6. 471-ci maddənin dispozisiyasından "idman mərc oyunlarının operatorları," və "lotereya təşkilatçısı" sözləri çıxarılsın;

1.7. 525-ci maddə üzrə:

1.7.1. sanksiyada "müsadirə edilməklə dörd yüz manatdan altı yüz manatadək məbləğdə" sözləri ", qazanılmış uduş, mükafat və ya digər gəlir müsadirə edilməklə üç min manat məbləğində" sözləri ilə əvəz edilsin;

1.7.2. "Qeyd" hissəsi ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*
*N 451-VIQD*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (II kitab), maddə 251, N 5, maddə 323, N 12, maddə

835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12 (I kitab), maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 5, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330, N 5, maddələr 694, 696, 702, 733, N 7, maddələr 1268, 1271, 1293, N 11, maddələr 1968, 1978, N 12 (I kitab), maddə 2231; 2018, N 3, maddə 403, N 5, maddə 861, N 6, maddə 1154, N 7 (I kitab), maddə 1441, N 10, maddə 1972, N 11, maddə 2213, N 12 (I kitab), maddə 2472; 2019, N 4, maddə 586, N 7, maddə 1201, N 8, maddə 1367; 2020, N 3, maddə 223, N 5, maddə 518, N 7, maddə 832, N 8, maddə 1010, N 11, maddələr 1332, 1333; 2021, N 6 (I kitab), maddə 541, N 8, maddə 894) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 73-2.2-ci maddədən "192-1," rəqəmləri çıxarılsın;

1.2. 190-cı maddənin "Qeyd" hissəsindən "192-1.1, 192-1.2," və "192-1.3.2," rəqəmləri çıxarılsın;

1.3. 192-1-ci maddə ləğv olunsun;

1.4. 244-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 244-1. Qumar oyunlarının təşkili və ya keçirilməsi

244-1.1. Qumar oyunlarının təşkili və ya keçirilməsi, habelə qumar oyunlarının keçirilməsi üçün yer təşkiletmə və ya saxlama-

beş min manatdan on min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

244-1.2. Eyni əməllər:

244-1.2.1. təkrar törədildikdə;

244-1.2.2. internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədildikdə;

244-1.2.3. yetkinlik yaşına çatmayanların qumar oyunlarında iştirakına yol verməklə törədildikdə;

244-1.2.4. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

244-1.2.5. xeyli miqdarda gəlir əldə etməklə törədildikdə -

on min manatdan on beş min manatadək miqdarda cərimə və ya iki ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

244-1.3. Bu Məcəllənin 244-1.1-ci və ya 244-1.2-ci mad-

dələrində nəzərdə tutulmuş əməllər:

244-1.3.1. mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;

244-1.3.2. külli miqdarda gəlir əldə etməklə törədildikdə -

üç ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

244-1.4. Bu Məcəllənin 244-1.1 - 244-1.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda gəlir əldə etməklə törədildikdə -

dörd ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

1. Bu Məcəllənin 244-1-ci maddəsində "qumar oyunu" dedikdə, pul vəsaitləri, maddi və sair nemət (uduş) barəsində oynanılan və uduşu qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan oyunlar (o cümlədən mərclər) başa düşülür.

2. "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada keçirilən lotereyalara və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada keçirilən idman mərc oyunlarına bu maddənin qüvvəsi şamil edilmir.

3. Bu Məcəllənin 244-1.2.5-ci maddəsində "xeyli miqdar" dedikdə əlli min manatdan yuxarı, lakin iki yüz min manatdan artıq olmayan məbləğ, 244-1.3.2-ci maddəsində "külli miqdar" dedikdə iki yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, 244-1.4-cü maddəsində "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür.

4. Bu Məcəllənin 244-1.2.5-ci, 244-1.3.2-ci və 244-1.4-cü maddələrində nəzərdə tutulmuş əməlləri törətmiş və cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə əldə edilmiş gəlirin bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.

5. Şəxs bu "Qeyd"in 4-cü bəndində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir.".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*
*N453-VIQD*

## "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 6, maddə 364; 2005, N 6, maddə 466; 2006, N 12, maddə 1005; 2007, N 10, maddə 938; 2011, N 3, maddə 162; 2012, N 11, maddə 1051; 2017, N 3, maddə 345; 2019, N

12, maddə 1881; 2020, N 3, maddə 225, N 6, maddə 671) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 13-2.3.7-ci maddədən "və digər qanunsuz mərc" sözləri çıxarılsın;

1.2. 13-2.4-cü maddəyə "ehtiyatında" sözündən sonra "və ya onun müvafiq hissəsində" sözləri, "götürülməsini" sözündən sonra "və ya həmin informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılmasını" sözləri əlavə edilsin;

1.3. 13-2.5-ci maddəyə "ehtiyatlarında" sözündən sonra "və ya onların müvafiq hissələrində" sözləri, "götürülməsi" sözündən sonra "və ya həmin informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılması" sözləri əlavə edilsin;

1.4. 13-3.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Xəbərdarlığın məzmununda yayılması qanunla qadağan edilən informasiya barədə məlumat, müvafiq informasiyanın internet informasiya ehtiyatından götürülməsinə və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılmasına dair tələb, belə tələb üçün qanunda nəzərdə tutulmuş əsaslar, habelə müvafiq tələbə vaxtında riayət edilməyəcəyi təqdirdə görüləcək tədbirlər barədə məlumat göstərilməlidir.";

1.5. 13-3.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"13-3.2. Xəbərdarlıq edildiyi vaxtdan 8 saat ərzində yayılması qanunla qadağan edilən informasiya internet informasiya ehtiyatından götürülmədikdə və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciət məhdudlaşdırılmadıqda, müvafiq icra hakimiyyəti orqanı informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılması barədə ərizə ilə rayon (şəhər) məhkəməsinə müraciət edir.";

1.6. 13-3.3-cü, 13-3.4-cü (hər üç halda) və 13-3.5-ci maddələrə "ehtiyatına" sözündən sonra "və ya onun müvafiq hissəsinə" sözləri əlavə edilsin;

1.7. 13-3.6-cı maddəyə hər iki halda "ehtiyatına" sözündən sonra "və ya onun müvafiq hissəsinə" sözləri, "ehtiyatını" sözündən sonra "və ya onun müvafiq hissəsini" sözləri əlavə edilsin;

1.8. 13-3.7-ci maddəyə "ehtiyatına" sözündən sonra "və ya onun müvafiq hissəsinə" sözləri əlavə edilsin;

1.9. 13-3.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"13-3.8. İnternet informasiya ehtiyatının sahibi məlumatın götürülməsini bu Qanunun 13-2.4-cü maddəsində nəzərdə tutulmuş qaydada təmin etmədikdə və informasiyanın internet informasiya ehtiyatında və ya onun müvafiq hissəsində yayılmasının qanunla qadağan edilməsi ilə əlaqədar qüvvəyə minmiş məhkəmə qərarı olduqda, müvafiq icra hakimiyyəti orqanı həmin informasiya ehtiyatını və ya onun müvafiq hissəsini şəxsin müraciəti əsasında "Yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi informasiya ehtiyatlarının Siyahısı"na daxil edir. Həmin internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılması üçün bu Qanunun 13-3.7-ci maddəsində nəzərdə tutulmuş tədbirlər həyata keçirilir.".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*
*N462-VIQD*

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, maddələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; 2017, N 2, maddə 155, N 4, maddə 523, N 5, maddələr 706, 750, N 11, maddələr 1935, 1975; 2018, N 5, maddə 879, N 8, maddə 1672, N 11, maddələr 2209, 2225, N 12 (I kitab), maddələr 2524, 2534; 2019, N 1, maddə 23, N 5, maddələr 792, 812, N 7, maddə 1197, N 12, maddələr 1897, 1907; 2020, N 7, maddə 832, N 11, maddə 1333; 2021, N 4, maddə 309, N 7, maddələr 711, 713, N 8, maddə 894) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 305.1.16-cı maddəyə "internet" sözündən əvvəl "yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya" sözləri əlavə edilsin;

1.2. 40-6-cı fəslin adında "İnternet" sözü "Yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet" sözləri ilə əvəz edilsin;

1.3. 355-20.1-ci və 355-21-ci maddələrdə "internet informasiya ehtiyatına" sözləri "yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə" sözləri ilə əvəz edilsin;

1.4. 355-20.2-ci və 355-22.4-cü maddələrdə "İnternet informasiya ehtiyatına" sözləri "Yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə" sözləri ilə əvəz edilsin;

1.5. 355-22.1-ci maddədə "İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə ərizəyə" sözləri "Ərizə" sözü ilə əvəz edilsin, "sonra" sözündən sonra "ona" sözü əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*
*N 463-VIQD*

# QANUNÇULUQ

## hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 28  Tiraj:1000 ədəd